İRFAN

No:28-Mart-2009 İctimai fikir jurnalı-3 AZN



Bəxtiyarını itirdi

TARİXİN UTANC SƏHİFƏLƏRİ

TARİXİN QANLI YADDAŞI

Aydındır ki, erməni terrorunun əsas hədəfi hər zaman türklər və azərbaycanlılar olmuşdur. Onlar ən çox terror aksiyalarını 1904-1907, 1914-1915, 1918-1920, 1948-1952, 1966-1967, 1988-2003-cü illərdə törətməklə on minlərlə günahsız və dinc insanı qətlə yetirmişlər. Lakin ermənilərin 1918-ci ilin 30-31 martında törətdiyi terror aksiyası daha dəhşətli idi və bu hadisələrdə təkcə Bakı şəhərində 30 min dinc sakin qətlə yetirilmişdir. 1914-1920-ci illərdə erməni terrorçuları tərəfindən 3,5 milyon türk öldürülmüşdür.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmişlər. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulmuş, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırmışlar. Azərbaycanlılara qarşı həyata keçirilən soyqırım siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8.027 azərbaycanlını, o cümlədən 2.560 qadın və 1.277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər.

İrfan Jurnalı

İRFAN
Mart/2009/№:28
ictimai fikir jurnalı
Dövlət Reystr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Editör:
Salih Zeki MERİÇ

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Məsul katib:
Elşən RZAYEV

Redaksiya heyəti:
Akademik Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Nurlan MƏMMƏDZADƏ
Səadət MÜRŞÜDOVA
Hacı Arif HEYDƏROĞLU
Rövşən QƏNİYEV
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
İrfan Qrafik
Copyright 2008 © All Rights Reserved
Created and supported by "irfan"

Foto:
«İRFAN»

Abunə və reklam işlərindən məsul:
Niyazi YUSİFOV
Tel: 070 351 35 54

Abunə təmsilçiləri:
Quba - Seyran Fərəczadə - 0507471079
Ağdaş - Şahin Rəhimov- 0503887068
İsmayıllı -Vasif Teymurov- 0504653601
Zaqatala - Zöhrab Mehdiyev - 0505836888
Əliabad - Kamran Məmmədov - 0503806922
Şamaxı - Akif Hüseynli - 0506205928
Şəki - Vüqar Məmmədov - 0556237232
Qəbələ-Saleh Şirinov - 0503827823
Qax-Nizami Davudov- 0503985551
Qazax- Asif Yaqublu- 0505655556
Göyçay-Müşfiq Əsgərov - 0503490157
Kürdəmir-Aqil Əliyev- 0507183541
Saatlı-İsmayıl Cəlalov- 0503290805
Şirvan- Vüqar Nağdalıyev- 0707228202
Xaçmaz- Elvin İdayətov- 0505849095
Mingəçevir- Müşviq Nəcəfov- 0707185537
Ağsu-Zaur Abdulkərimov-0505637834

İllik abunə qiyməti:
Ölkədaxili 25 manat
Xarici ölkələr üçün 60 EURO

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfan@irfandergisi.com
irfandergisi@yahoo.com

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

İrfandan

Millətlərin dərin hafizəsi nə bir acını unutdurur, nə də bir sevinci. Xüsusilə də acılar və kədərlər unudulmur... Üstündən illər keçsə də, üstü örtülməyə çalışılsa da əslində dərinlərdə ağrısını davam etdirir. 1918-ci ildə azəri türklərinə rəva görülən soyqırım hadisəsi bütün faktlarla arxivlərdə mövcuddur. Biz bu məsələlərə işıq tutmaq və gündəmə gətirməklə acıların təzələnməsini deyil, həm bu zülmü insanlığın gözü önündə məsum insanlara etmiş, həm də bu haqsızlıqdan utanmaq yerinə, lobbiçilik fəaliyyəti ilə dünya ictimaiyyətində özlərini haqlı göstərənlərə bu məsələdə heç bir əsaslarının olmadığını bir daha göstərmək qayəsi güdürük.

Əziz oxucular!

Mart ayı Azərbaycan tarixində mühüm hadisələrin olduğu bir zaman kəsiyidir. Tarix xatırlandıqca və ibrət alındıqca əhəmiyyət qazanır. Tarixin təkrarlanmaması da tarixdən alınacaq ibrətlərlə paraleldir. Əslində soyqırımlardan danışmaq üçün əsrin əvvəllərinə getməyə gərək yoxdur. Yaxın tarixdə - 90-cı illərdə gözəl vətənimiz Azərbaycanda bu millətə rəva görülən zülmlər hələ öz təzəliyini itirməmişdir. ***Xocalıda şəhid edilən minlərlə yurddaşımızın, Qarabağda şəhid olan qəhrəman Vətən övladlarımızın və 20 Yanvarda şəhid edilən qadın, uşaq, yaşlı insanlarımızın fəryadları hələ bu xalqın qulaqlarında əks-səda verir.*** Məsələnin siyasi tərəfi ilə dövlət rəhbərlərimiz gərəkli şəkildə maraqlanmaqda və bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün əllərindən gələni etməkdədirlər. Biz bu acını vətəndaşlarımızın dövlət, millət, vətən və tarix şüurunun inkişafında az da olsa yardımçı olması üçün ələ almağı özümüzə vəzifə bildik.

Bu yaxınlarda Türk dünyasının böyük şairi, ədi-

bi Bəxtiyar Vahabzadəni itirdik. Bu itki ilə Azərbaycan xalqı böyük bir kədər yaşadı. Bəxtiyar Vahabzadənin ədəbi siması ilə yanaşı xalq adamı, dövlət xadimi olması və bu millətin belə bir insan yetişdirməsi də bu millətin böyüklüyündən irəli gəlir. Vahabzadənin arxasından göz yaşı tökənlər, ədəbiyyatsevərlər onun üçün ürəklərindən gəldiyi kimi yazılar qələmə aldılar. İrfan jurnalımızda da bu mənada yazılmış yazılar sizi gözləyir.

Bu il Mart ayı Kainatın Sərvəri Hz. Məhəmməd (s.ə.s)-in dünyaya göz açdığı Rəbiul Əvvəl ayı ilə üst-üstə düşür. Əziz Peyğəmbərimizi sevməyə və onun mərhəmət anlayışına bizim hər zaman ehtiyacımız var. Onun yaşadığı əsrdən bugünümüzə gələn ülvi səslər hər zaman bizim üçün nümunə götürəcəyimiz ibrətlərlə doludur. Onun həyatı hər bir müsəlman üçün örnəkdir. Jurnalımızın bu sayında da Peyğəmbər sevgisini bizə yenidən xatırladacaq yazılarla qarşılaşacaqsınız.

Yeri gəlmişkən sizə ***İPƏKYOLU*** nəşriyyatının yeni kampaniyasından xəbər vermək istəyirik. Möhtərəm **Osman Nuri Topbaş** bəyin böyük həssaslıqla qələmə aldığı, Həzrət Məhəmmədin həyatını ən gözəl şəkildə anladan iki cilddən ibarət ***"Məhəmməd Mustafa"*** kitabını Əziz Peyğəmbərimizin mübarək mövludu ərəfəsində xüsusi endirimlərlə ala biləcəksiniz. Əsasən də İrfan abunəçilərinin faydalanacağı yeni kampaniyamızla bu mübarək gündə Azərbaycan oxucusuna ən gözəl ərməğanı təqdim edirik.

Təşəkkür!

Yanvar ayından bəri davam edən **abunə kampaniyamız** sona çatdı. Yaxından əlaqə göstərdiyiniz üçün sizə xüsusi təşəkkürümüzü bildiririk. Sizin səmimi qəlblə etdiyiniz dualarınız və çalışmalarınız nəticəsində jurnalımız Azərbaycanın hər tərəfinə yayılacaqdır. Buna ürəkdən inanırıq. Gələcəkdə həyata keçirəcəyimiz kampaniyamıza indikindən daha çox dəstək olacağınızdan əminik.

Əziz oxucular!

İrfanın bu sayında mərhum şair **Bəxtiyar Vahabzadə** ilə açdıq səhifələrimizi. ***Salih Zeki Meriç*** onunla bağlı duyğularını "Xəzərin heç batmayan günəşi" olaraq dəyərləndirdi. Digər tərəfdən şair ***Məmməd Aslanın*** mərhum ustadla apardığı son telereportajını da yazıya köçürərək sizinlə paylaşdıq. Həmçinin ***Nurlan Məmmədzadənin*** yazısı da o dahi şairimizi tərif edir.

Elşən Rzayev öz yazısında tarixən millətimizə qarşı törədilmiş erməni vəhşiliklərini və bu hadisələrdən ibrət almamızın zəruriliyini vurğuladı. ***Prof. Dr. Nizami Cəfərovun*** Azərbaycan xalqının öz ərazi bütövlüyü uğrunda mübarizəsi tarixinə dair qələmə aldığı məqaləsi hər bir oxucunun mütləq oxuyacağı bir əsərdir.

Ümumiyyətlə bu sayımızda oxuyacağınız rəngarəng yazıları bəyənəcəyinizi düşünürük. ***Dr. İbrahim Bazın*** yazdığı "Dünyanın da qəlbi bir gün dayanacaq" adlı yazısı, ***Dr. Mehman İsmayılovun*** Peyğəmbərliyin qayəsini anladan məqaləsi, ***Prof. Dr. M. Yaşar Kandemirin*** "Peyğəmbər sevgisi" adlı yazısı, xüsusilə möhtərəm ***Osman Nuri Topbaş bəyin*** qəlbindən süzülən, qələmi ilə ağ kağız üzərinə oradan da qəlblərimizə nəqş olunan məqaləsi İrfan oxucuları üçün müstəsna əhəmiyyət daşıyan yazılardır. Yenə ***Adem Şahinin, Lokman Helvacının, Prof. Dr. Muammer Erbaşın*** yazıları hamının ürəyincə olacaqdır. ***Rüfət Şirinovla Fuad Quliyevin*** məqalələrində isə maddiyyata əsir olan insanların acı aqibətini oxuyacaq və bizə düşən ibrətləri alacağıq.

İrfanla yeni günlərə...

İçindəkilər

Salih Zeki MERİÇ
Xəzərdə batmayan günəş BƏXTİYAR VAHABZADƏ..... 6

Nurlan MƏMMƏDZADƏ
Əzədbiyyatımızın Bəxtiyar zirvəsi.....10

Reportaj: Türk dünyası Bəxtiyarını itirdi..... 12

Prof. Dr. Nizami CƏFƏROV
Azərbaycan xalqının öz ərazi bütövlüyü uğrunda mübarizəsi tarixinə dair.....18

Elşən RZAYEV
Unutduqca təkrarlanır bəlalar 22

Lokman HELVACI
Gələn qalmaz, gedən gəlməz 24

Osman Nuri TOPBAŞ
Axirəti dünyadan üstün tutmaq 26

Prof. Dr. M. Yaşar KANDEMİR
Peyğəmbər sevgisi.....32

Rüfət ŞİRİNOV
Saləbə hədisindən günümüzə əkslər 34

Dr. Mehman İSMAYILOV
Nübüvvətin qayəsi.....36

Prof. Dr. Muammer ERBAŞ
Kimləri sevməliyik 38

Dr. İbrahim BAZ
Bir gün dünyanın da qəlbi dayanacaq 40

Nübar Əlizadə
Xocalı faciəsi xalqımızın qan yaddaşıdır.....42

Məsnəvidən
Kamran MƏMMƏDOV 44

Fuad Quliyev
İqtisad və israf 46

Məmməd MƏMMƏDZADƏ
Qərib ellərdə saralıb solan. 48

Adem ŞAHİN
Xoş gəldin, Bahar!.....52

Texno aləm
Ceyhun HƏŞİMOV. 54

Xəbər.....56

İçindəkilər



Xəzərdə batmayan günəş
BƏXTİYAR VAHABZADƏ
Salih Zeki MERİÇ
6

TÜRK DÜNYASI BƏXTİYARINI İTİRDİ
Məmməd ASLAN
12

Haqq dostlarının nümunəvi əxlaqından
AXİRƏTİ DÜNYADAN ÜSTÜN TUTMAQ
Osman Nuri Topbaş
26

AZƏRBAYCAN XALQININ ÖZ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏSİ TARİXİNƏ DAİR
Prof. Dr. Nizami CƏFƏROV
18

NÜBÜVVƏTİN QAYƏSİ
Dr. Mehman İSMAYILOV
36

Salih Zeki MERİÇ

salihzekimeric@yahoo.com

Xəzərdə batmayan günəş
BƏXTİYAR VAHABZADƏ

Üzündəki dərin xətlər bir əsrə yaxın həyatında çəkdiyi əziyyətlərdən xəbər verirdi sanki. Gözləri həmişə nəmli idi. Bir millətin azadlıq mübarizəsində simvollaşmışdı Bəxtiyar Vahabzadə. "Türk" deyilincə onun üçün hər şeyin mənası dəyişirdi. Səsi titrək idi, amma eyni zamanda illərlə millətinə rəva görülən əsarətə qəzəbli idi. Bir fevral axşamında şərqin yüksələn çinarlarından biri də yıxıldı.

Şairlər bir cəmiyyətin yüksələn fəryadı, ağlayan gözləri və gülən üzləridir. Bir millətin dəyərləri qəsb edilə, hətta yox edilə bilər. Ancaq o millətin şairlərinin yüksələn səsi, ədəbiyyatı, sənəti heç bir şəkildə yox edilə bilməz. Şairlər zamanı gəldikcə tarix səhnəsindən fani bədənləriylə çəkilsələr də, arxalarında qoyduqları ədəbiyyat mirası əbədiyyətə qədər davam edər.

Bəxtiyar Vahabzadə həm öz millətinə, həm də bütün dünyaya qoyduğu ədəbi mirası ilə gələcək nəsillərə səsini çatdıran böyük bir şair, ədəbiyyatçı, ziyalı və bir ağsaqqal idi. Səksən dörd illik ömrü boyunca millətinin azadlığı üçün çırpınmış və bu ideal üçün varını-yoxunu ortaya qoymuşdur. 2009-cu ilin bir fevral axşamında, Xəzərin mavi sularında bir günəş batması kimi aramızdan ayrıldı Bəxtiyar Vahabzadə.

Üzündəki dərin xətlər bir əsrə yaxın həyatında çəkdiyi əziyyətlərdən xəbər verirdi sanki. Gözləri həmişə nəmli idi. Bir millətin azadlıq mübarizəsində simvollaşmışdı Bəxtiyar Vahabzadə. "Türk" deyilincə onun üçün hər şeyin mənası dəyişirdi. Səsi titrək idi, amma eyni zamanda illərlə millətinə rəva görülən əsarətə

qəzəbli idi. Bir fevral axşamında şərqin yüksələn çinarlarından biri də yıxıldı. Bəlkə Xəzərdə yavaş-yavaş bir günəş batırdı, ancaq arxada minlərlə Vahabzadə aşiqi onu son mənzilinə yola salmaq üçün gəlmişdi Bakı Dövlət Universitetinin konfrans zalına.

Şair bir millətin şair oğlu ölkəsinin sərhədlərini çoxdan aşmış və Türk Dünyasının ortaq dəyəri olmuşdu. Elə bu yaxınlarda itirmişdik Çingiz Aytmatovu. Ona ağlamışdı bütün ədəbiyyat aşiqləri və azadlıq üçün ürəyi çırpınanlar. Bəlkə öz torpaqlarında azad doğulan, azad böyüyən insanların bunu dərk etməsi bir az çətindir. Lakin bir zamanlar dünyanın qüdrətli imperiyası olan SSRİ-nin əsarətində ola-ola öz mənliyini qorumağı bacarmaq və şeirlərində, hekayələrində, romanlarında həmişə azadlıq ideyalarını əks etdirmək hər igidin işi deyildi. Həm Çingiz Aytmatovu, həm də Vahabzadəni o birilərdən ayıran ən əhəmiyyətli xüsusiyyətləri də məhz elə bu idi.

Onu sima olaraq Ustad Nəcib Fazilə bənzədənlərə: *"Hərçənd mənim "Çilə" adlı kitabım yoxdur, amma həm simamız, həm də həyatımız eynidir"* deyirdi.

70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilmişdir. O, içindəki azadlıq atəşini və millətinin səsini əsərləri sayəsində bütün dünyaya eşitdirməyə çalışmışdır.

Vahabzadənin əsərləri arasında ən əhəmiyyətlilərindən biri 1960-cı ildə yazdığı və parçalanmış Azərbaycan xalqının azadlıq mübarizəsini izah etdiyi *"Gülüstan"* poemasıdır. Bu poemasına görə 1962-ci ildə "millətçi" damğası ilə Universitetdəki müəllimlik vəzifəsindən uzaqlaşdırılmış, ancaq 2 il sonra təkrar işinə bərpa edilmişdir. Kitablarında, Sovet rejimində milli varlığı ayaqlar altına alınan, hər cür məhrumiyyətlərə məruz qalan millətinin dərdlərini müxtəlif simvol və ədəbi üsullarla dilə gətirmiş, əsərlərində məkan olaraq həmişə başqa ölkələri göstərərək öz millətinin çətinliklərini izah etməyə çalışmışdır. Birbaşa Sovet rejimini tənqid edən əsərlərini isə ittifaqın dağılmasından sonra

"Sandıqdan Səslər" adı ilə nəşr etdirmişdir.

...50 il müəllimlik etdiyi Bakı Dövlət Universitetinin bağçası insanla dolu idi. Xalqın hər təbəqəsindən insanlar vardı. Dövlət adamları, siyasətçilər, millət vəkilləri, sənətçilər, tələbələr, şairlər, ədəbiyyatçılar. Bu, Vahabzadənin bir *"ağsaqqal"*, bir ziyalı olaraq hər kəs tərəfindən qəbul edildiyinin nümunəsidir.

Bir qrup yoldaşla birlikdə biz də böyük şairi son yola salmaq üçün Bakı Dövlət Universitetinin bağçasına qaçdıq. Hələ dəfələrlə böyük şairlə telefon vasitəsilə danışmışdıq. Ancaq son iki ildə sürən ağır xəstəliyi səbəbilə görüşə bilməmişdik. Bunun da acısı vardı içimizdə. Şairin tabutu qarşısından keçərkən **"Fatihə"**lər oxuduq içimizdən. Diqqətimi çəkən bir xüsus onun Türk dünyasının ortaq dəyəri olduğunu bir daha göstərdi. *"Bir Millət İki Dövlət"* düşüncəsinin bariz nümunəsini şairin həm Azərbaycan bayrağına, həm də Türk bayrağına sarılmış tabutunda gördüm. Bəli, şairin tabutu ay-ulduzlu bayraqlara sarılmışdı. Çünki şair *"Bayraq"* adlı şeirində bayrağın müqəddəsliyini çox gözəl bir şəkildə dilə gətirmişdi:

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq-öz yurduma öz hakimliyim.

Bəlkə vəsiyyəti elə idi, bəlkə də sevənləri onu iki qardaş ölkənin bayrağına bürüməyi uyğun hesab etmişdilər. Kim bilir?

Türk olduğunu və türk olmaqdan qürur duyduğunu bir çox şeirlərində özü dilə gətirirdi:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

Şair ən çətin şərtlərdə belə, türk olduğunu ifadə etməklə yanaşı, müsəlmanlığını da ifadə etməkdən çəkinməmişdir. O, **"Allah"** adlı şeirində Uca Rəbbimizin böyüklüyünü nə gözəl ifadə etməyə çalışmışdır:

İdrakda yol açmış gecədən gündüzə
Allah,
Güldürməsən öz könlünü, gülməz üzə
Allah.
Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş,
Qəlbin gözü yanmasa, görünməz gözə

Bir qrup yoldaşla birlikdə biz də böyük şairi son mənzilə yola salmaq üçün Bakı Dövlət Universitetinin bağçasına qaçdıq. Hələ dəfələrlə böyük şairlə telefon vasitəsilə danışmışdıq. Ancaq son iki ildə sürən ağır xəstəliyi səbəbilə görüşə bilməmişdik. Bunun da acısı vardı içimizdə.

Allah.
Allah! Bilirik cism deyil, bəs nədir Allah?
Ən yüksək olan haqda, həqiqətdir Allah.
Dondunsa təkamül və gözəllik qabağında,
Dərk et bu, təəccübdə, bu heyrətdədir Allah.

Cənazə mərasiminin səhəri gün, dəfn edildiyi Fəxri Xiyabana getdik. Şair əbədi istirahətgahında… Məzarı güllərlə, qərənfillərlə bəzənmiş və yenə Azərbayan və Türk bayrağı ilə örtülmüşdü. Ölümü belə, türk sevgisinə işarə edirdi şairin. O, sağlığında Türkiyə ilə çox yaxın olmuş və xüsusilə Türk dilinin ortaq bir dil olması yolunda böyük səylər göstərmişdi.

Xülasə, *"Söz uçar, yazı qalar"* deyirlər. Amma bir şairin dünyaya söyləyə biləcəyi çox şeyi söyləyərək aramızdan ayrıldı Vahabzadə. İdeyalarını şeirləri ilə, yazdığı onlarla kitabı ilə ölümsüzləşdirdi və arxada qalanlara misilsiz bir mədəniyyəti miras qoydu.

Allah rəhmət etsin! Bütün ədəbiyyatsevərlərin, bütün azadlıq sevdalılarının və bütün Türk Dünyasının başı sağ olsun!

ŞEİR

Deyilmi?

Bəxtiyar Vahabzadə

Ömür başdan-başa, beşikdən-qəbrə
Həyatın sevinci, qəmi deyilmi?
Ölüm bir ömürlük iztirabların-
Ağrının, acının cəmi deyilmi?

Mənəvi dünyaya qalxıb ucalmaq
Qanadlı duyğuya qismətdir ancaq.
Beləysə, ömürdən, gündən kam almaq
Hər kəsin arzusu, kamı deyilmi?

Keçir məqamlar da gündə yüz əldən
Hansı gizli əldir pozan, düzəldən.
Sənin güvəndiyin dünya əzəldən
Əkilən, biçilən çəmi deyilmi?

Ayaqlar altında yer oldu tapdaq,
Sirrini, məğzini bilmədik ancaq.
Tapdaq etdiyimiz bu qara torpaq
Əbədi mənzilin damı deyilmi?

Damımız üstündə gəzər, hey gəzər,
Hərə ürəyincə bir mənzil bəzər.
Torpağı sormaqdan etmədik həzər,
Bu da ağlımızın kəmi deyilmi?

Ötəri mənzildə qədər hökm edər,
Kimimiz bal içər, kimimiz zəhər:
Əbədi mənzildə hamı - bir nəfər,
Bir nəfər özü də hamı deyilmi ?

22 fevral, 1986.

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

ƏDƏBİYYATIMIZIN BƏXTİYAR ZİRVƏSİ

Bəxtiyar Vahabzadənin ən böyük xidmətlərindən biri məhz hamının ruslaşmağa meyilli olduğu, rusdilli olmağa tamah saldığı bir dövrdə öz ana dilimizi təbliğ etməsi idi. BDU-də dərs deyərkən də buna çalışırdı, yazdığı əsərlərində də hamını bu dilə səsləyirdi. Vətəni, ana dili pula, vəzifəyə satanları söz atəşinə tuturdu hər zaman.

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Doqquz bənddən ibrət olan bu şeiri hələ kiçik yaşlarımda əzbərləmişdim. Onunla bu şeir vasitəsilə tanış olmuşdum. Onda altı yaşım vardı və məktəbə getmirdim. Hələ oxuyub-yaza bilmirdim. Bu şeiri atam əzbərlətmişdi mənə. O, oxumuş, mənsə təkrarlayaraq əzbərləmişdim. 1987-ci ildə çıxan, eyniadlı kitabında yer alan Axı dünya fırlanır şeiri ilə Bəxtiyar Vahabzadə ilə ilk tanışlığım belə oldu. Hələ balaca uşaq ikən atamın nəzarətində əzbərlədiyim Bəxtiyar və Şəhriyar şeirləri eyni zamanda ədəbiyyata olan marağımı, sevgimi formalaşdırdı.

Bəxtiyar poeziyası...

Bəxtiyarın yazmış olduğu şeirlər digər şairlərdən fərqli olaraq hər bir azərbaycanlıya doğmadır. Çünki o, doğma ana dilimizin ən sadə üslubuyla yazırdı. O, bəzi şairlərdən fərqli olaraq bəzəkli və təmtaraqlı sözlərlə cılız mənalara maska geydirmirdi. O, sadə çay daşlarından möhtəşəm qəsrlər ucaldan mahir bir bənnaya bənzəyirdi. Ədəbiyyatımızın uzaqdan görünən bir neçə nəhəng qülləsindən birinin memarıdır o. Bəzən inşa etdiyi bu binalar ədəbiyyatımıza, dilimizə yad olan ünsürlərin hücumu qarşısında istehkama çevrilir. Çünki o, doğma ana dilində yazırdı. Həm də elə ana ağzıyla, ana ləhcəsiylə, ana şivəsiylə...

Savadsızdır
Adını da yaza bilmir
Mənim anam
Ancaq mənə
Say öyrədib
Ay öyrədib
İl öyrədib
Ən vacibi dil öyrədib

Mənim anam.
...
Bu dil ilə yaratmışam
Hər şerimi, hər nəğməmi...

Bəli, Bəxtiyar Vahabzadənin ən böyük xidmətlərindən biri məhz hamının ruslaşmağa meyilli olduğu, rusdilli olmağa tamah saldığı bir dövrdə öz ana dilimizi təbliğ etməsi idi. BDU-də dərs deyərkən də buna çalışırdı, yazdığı əsərlərində də hamını bu dilə səsləyirdi. Vətəni, ana dili pula, vəzifəyə satanları söz atəşinə tuturdu hər zaman. Türk xalqlarının birləşməsinə, ortaq dildə danışmasına can atırdı. Bəzən boğurdular səsini, amma yenə usanmırdı. Haqq bildyi yoldan dönmürdü. Bizə orta məktəb illərində onun bir şeirini əzbərlədirdilər. Hələ 1972-ci ildə Qərbi Berlində qələmə aldığı "Çörək-Vətən" şeirini. Hər zaman öz aktuallığını qoruyub saxlayan şeirdi bu. Almaniyaya gedib "Avropalaşan" və doğma yurdu pula satan bir türk balasıyla aralarında keçən dialoq hər zaman ana dilini dananlara, ana vətəni saymayanlara, ana laylasını Qərbin repinə, rokuna dəyişənlərə səslənirdi:

Əynində «cinsi» şalvar,
Belində enli kəmər,
Saçı çiyinlərində
Döşündə emblemlər,
Firmenli bir türk ilə
Mən danışdım ərk ilə:
- Burda çörək tapmısan, bəs səadət, bəs Vətən?
Çörək səadət deyil, unutdunmu bunu sən?

O, ana dilimizdə elə gözəl əsərlər qələmə almışdır ki, bu əsərlər hər zaman öz sözünü deyəcəkdir. O, istər Sovetlər dövründə, istərsə də müstəqillikdən sonra hər zaman gerçəkləri dilə gətirmişdir. Hələ 1959-cu ildə yazdığı Gülüstan poemasında:

Bir deyən olmadı, durun ağalar!
Axı, bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri,-
Bəs hanı bu yurdun öz sahibləri?

-deyərkən eyni zamanda dövrün imperiyasına səslənirdi. Xalqları əsarətdə saxlayan Rus-Sovet rejiminə üsyan vardı bu şeirdə. "Bu yurdu öz sahiblərinə qaytarın, çəkin əlinizi!" deyirdi sanki. O zaman ki, bizi istismar edənlərə "böyük qardaş" deyirdik. Onları həmişə süfrəmizin başında oturdurduq. Bu "böyük qardaş"larınsa bizi adam yerinə qoymadığını çox az adam dərk edirdi, dilə gətirirdi. Bunlardan biri də Bəxtiyardı:

Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə "ver" - dedi.
Lap yaxsı eləyib doğrudan, bizə
Biri "baran" - dedi, biri "xər" - dedi.

Bir sözlə deyə bilərik ki, Bəxtiyar Vahabzadə bu xalqın dahi şairlərindən ibarət əzəmətli sarayın ana sütunlarından biridir. Min illər keçsə də, bu gün Nizamilər, Füzulilər yad edildiyi kimi o da hər zaman yad ediləcəkdir

TÜRK DÜNYASI BƏXTİYARINI İTİRDİ

ULU ŞAİRLƏ SON TELEGÖRÜŞ:
Bu qəbirlərin hərəsi bir addımdır. Bunlar mənim ömrümün yaşlarıdır düzülüb bura...

Bəxtiyar Vahabzadə sağlığında tarixə qovuşmuş, tarixə qarışmış ulu şairimizdir, sənətkarımızdır. Uzun zamandan bəri onunla görüşmək, müsahibə almaq, dərdləşmək istəyirdim. Amma iş elə gətirdi ki, bu arzum xeyli gecikdi. Səhhəti bərpa olsun görüşərik inşallah, dedim.

Yoldaşına zəng vurub dedim: "Ay Dilarə xanım, gəlim?" Cavabı belə oldu: "Ay Məmməd, gəlirsiniz, kövrəlir, sonra özünə gələ bilmir. Bir az gözləyin." Xülasə, 2005-ci ilin 18 yanvarında yanına getdim. Ondan "Türk soyunun Bəxtiyarı" adlı bir yazı yazmaq üçün getmişdim. Bir vaxtlar, təxminən 15 il əvvəl onun xoşuna gələn, tamaşaçıların, oxucuların xoşuna gələn bir yazı yazmışdım. Bir saata yazdığım yazımın adını "Bir saatın Bəxtiyarı" qoymuşdum. "Ədəbiyyat" qəzetində nəşr edilmiş bu yazım çox yaxşı qarşılanmışdı. Bu dəfə də fikirləşdim ki, yenə belə bir yazı yazaram. "Bir saatın Bəxtiyarı" adı olmasa da bir saatın içində görüşərəm.

"Ekran-Efir" qəzetində Bəxtiyar bəylə, o böyük şairimizlə bir söhbət verdik. Və

bir gün Bəxtiyar müəllim mənə zəng vurdu ki, bəs necə oldu o görüşün lent yazısı? Dedim axı mən elə-belə yazı yazmağa gəlmişdim. Dedi ki, o söhbətin dadı damağımdan getməyib. Onun təkrarını görmək istəyirəm, yəni ekranda təcəssümünü görmək istəyirəm. Mən də götürdüm baxdım ki, nə mən əlim qələm tutandan belə yaxşı sual vermişəm, nə Bəxtiyar Vahabzadə. Daha doğrusu Bəxtiyar Vahabzadə olandan bəri belə könül xoşluğuyla, xəstə olduğuna baxmayaraq, xəstəliyi ayağının altına qoyub çox gözəl cavablar vermişdi.

İndi isə o sual-cavabı İrfan jurnalının oxucularına təqdim edirəm...

M. Aslan: Bəxtiyar bəy, çoxdandır səni görmürəm, qardaşım! Bir dəfə o Hüsü Hacıyevdəki evinizə gəldim, o zaman mənim cavanlıq vaxtım idi, sizin ahıllıq çağınız. Elə indi də ahıllıq çağınızdı, amma mən də artıq sizə saqqaldaş olmuşam. Orda söhbətimizdə bir saat sizinlə oturdum. Yadınızdadısa "Bir saatın Bəxtiyarı"nı yazdım.

B. Vahabzadə: Elədir.

M. Aslan: O yazı yaxşı qarşılandı, sizin özünüz də bəyəndiniz. Ancaq onda bir fərqiniz də var idi. Dahi Füzuli ilə qabaq-qənşər oturmuşdunuz. Yadınızdadırmı?

B. Vahabzadə: Yadımdadır.

M. Aslan: Bir söhbətə hazırsınızmı? Növbəti bir söhbət. Yəni, sizdən yenə bir səhifəlik yazı yazmaq üçün həsrətini çəkdiyim bir söhbət.

B. Vahabzadə: Onu mən deyə bilmərəm ki, indi gücüm var, ya yox.

M. Aslan: Sizin gücünüz neçə-neçə palıd kimi, goy qurşağı kimi, bir dənizin dalğası kimidir inşallah.

B. Vahabzadə: Hə, qardaş! Zaman keçir, insan həm özüdü, həm də özü deyil. Özümüzü inkar edə-edə böyüyürük.

M. Aslan: Mən ümumiyyətlə çox görmüşəm ki, siz özünüzə qarşı çox tələbkar adamsınız. Ancaq bu gün belə davam edirmi özünüzü inkar?

B. Vahabzadə: Ölənə qədər davam edəcək. Biz iki quruluşun arasında olmuşuq. Biz iki sistemin övladlarıyıq. Həm Sovet sisteminin, həm də müstəqillik dövrünün. Bu, zarafat deyil. Böyük bir sistemin içində yaşamışıq. O sistemin qaydalarına, qanunlarına da uyğunlaşmışıq. Təzə bir sistem gəldi. İndi o köhnə hafizə ilə bu sistemi qavramaq çətindir. Çox çətindir. Bu ziddiyyət məni çox düşündürür. Mən bu sistemin içində bir müddət özümü itirdim. Yəni buna uyğunlaşa bilmədim. Halbuki bilirsiniz ömrüm boyu istiqlal demişəm. Ömrüm boyu müstəqillik uğrunda mübarizə aparmışam qələmimlə. İndi mənim istədiyim quruluş gəlib. Həmişə istəmişəm ki, Rus imperiyasından xilas olaq. Xilas olduq. İndi bu yenini qavramaq, yeniyə uyğunlaşmaq, bu bir qədər çətindi. İnsan nə qədər ağıllı olsa da sistemdən-sistemə keçmək çox çətindir. Həmən fikirdi, həmən ideyadı, amma cism o deyil, bədən artıq o deyil. Sən bugünkü cavanlarla uyğunlaşa bilərsənmi? Bugünkü gənc o sistemi görməyib. O, bu sistemə hazırına gəlib düşüb. O, daha tez qavraya bilir. Daha doğrusu sistemin içində yetişir. Amma

mən nə qədər bu sistemin içində yaşasam da bir ayağım ordadır. O biri tərəfdə.

M. Aslan: Bəxtiyar bəy, siz 70 milyonun o tərəfdə, 9 milyonun burda, 30 milyonun cənubda sevdiyi Bəxtiyar bəysiniz. Bu gün qələm məhsullarınızdan razısınızmı?

B. Vahabzadə: Heç vaxt, ömrüm boyu yazdığımdan razı qalmamışam. Nə o zaman yazdıqlarımdan, nə də indi yazdıqlarımdan razı qalmışam. Bu gün də yazdıqlarımdan razı qala bilmirəm.

M. Aslan: Şair, ilham dedikləri əslində ya mələyin sözüdür, ya da mələyin gözəgörünməzliklərdən gətirdiyi bir xəbərdir. Yazdıqlarınızın hansı hissəsi ilhamın sözüdür, hansı hissəsi ağlınızın?

B. Vahabzadə: Onu ayırmaq bir az çətindir, amma çətin olsa da deyim sizə. Məsələn fikrimdə bir fikir tutur məni, bir hiss tutur. Yazmağa başlayanda o hissə doğru getmək istəyirəm, onu demək istəyirəm, onu demək üçün hazırlıq gedir və sən birbaşa onun üstünə gedə bilirsənsə bu düz çıxmır, amma yazı prossesində yol ayrılırsa, başqa bir cığır ayrılırsa, o cığırla gedirsənsə, o cığır vasitəsi ilə ora çatırsansa, dolayısıyla, bu uğurdur. Ancaq birbaşa ora gedirsənsə onda o, ağlın məhsulu olur.

Bu qəbirlərin hərəsi bir addımdır. Bunlar mənim ömrümün yaşlarıdır düzülüb bura. Bəzən biz tamam unuduruq, otaqlara çəkilirik dünyadan xəbərimiz olmur. Bir də görürsən eşidirik ki, ən yaxın adamımız rəhmətə gedib.

M. Aslan: Çox gözəl dediniz, amma bir şeyi də bilmək istəyirəm. Siz nəzərdə tutduğunuz bir mövzu yazı prosesində əvvəlcə nəzərdə tutduğunuz olur, yoxsa gedişatda müəyyən şeylər ortaya çıxır?

B. Vahabzadə: Əgər birbaşa ora gedirəmsə, o uğursuz olur. Amma dolayısıyla gəlirəmsə, o uğurludur. Yəni fikirdən fikir doğursa, hissdən hiss doğursa birbaşa gəlmirsən, dolayısıyla gəlirsən. Bax o dolayısıyla gəlmək daha uğurludu.

M. Aslan: Bəxtiyar Vahabzadənin özü öz redaktoru olsaydı nəşr olunan əsərlərində çıxdaş etməli olduğu şey tapılardımı?

B. Vahabzadə: Çox.

M. Aslan: Nədən?

B. Vahabzadə: Bax, mən cildlərimi hazırlayıram. 7 cild çıxıb, təxminən bir 7 cild də olmalıdır planımda. Yəni publisistik əsərlərimlə, məqalələrimlə bərabər 14 cild olmalıdır. Məsələn, mən o cildlərə əsərlərimi salanda heç olmasa ümumi yaradıcılığımdan 30 faizini atdım, heç birisini salmadım ora. Ümumiyyətlə insanın özünə, öz keçdiyi yola tənqidi münasibəti vacibdir. Mən bunu çox vacib hesab edirəm.

M. Aslan: Əbədi möhtac olduğunuz, yəni ömrünüz boyu bəşəri, ya da qeyribəşəri mövzular ki, var onlardan hansı sizin yanınızda dolanır bu gün?

B. Vahabzadə: Məndə son zamanlar daha çox qoşmaya, gəraylıya meyil var. Çox qəribədir, cavanlıqda da vardı, amma indi daha çox zərurət hiss edirən.

M. Aslan: Sizin bir zamanlar azərbaycanlıların həsəd apardığı bir dördlüyünüz var idi. Yəni bir mərtəbə var idi ki, o mərtəbədə Xudu Məmmədov var idi, Zeynal Məmmədov var idi, Nurəddin Rzayev var idi, bir də siz vardınız, Bəxtiyar Vahabzadə vardı. Dünyanın gedişatı budur, bir Nurəddin qalıb, Allah ömür versin, bir də siz qalmısınız. Yəni bu ittifaq dağılandan sonra həsrət çəkirsinizmi o günlərə?

B. Vahabzadə: Bu yaxınlarda Xudunun qəbrini ziyarətə getmişdim. Gördüm ki, Xudunun bu tərəfində də, o tərəfində də xeyli qəbirlər var. Yeni qəbirlər, Xudu öləndən sonra olan qəbirlər. Mən o qəbirlərin üstündəki yazıları oxudum, gördüm ki, hamısını tanıyıram. Öz-özümə dedim ki, ilahi, bunlar nə zaman ölub, mənim xəbərim olmayıb və mən orda bir şeir yazdım. Bu qəbirlərin hərəsi bir addımdır. Bunlar mənim ömrümün yaşlarıdır düzülüb bura. Bəzən biz tamam unuduruq, otaqlara çəkilirik dünyadan xəbərimiz olmur. Bir də görürsən eşidirik ki, ən yaxın adamımız rəhmətə gedib.

Elədir, bizim xəbərimiz olmadan dünya boşalır. Bəzən biz deyirik ki, nakamdı, amma bir saat yaşasa da insandır. 50 yaşında, 200 yaşında, neçə olursa-olsun, ölüm acısını hər kəs dadacaqdır. Allah Xuduya da rəhmət eləsin, sağında-solunda yatanlara da.

M. Aslan: Təkcə Nurəddinmi qaldı, yoxsa ətrafınızda yenə dostlar var?

B. Vahabzadə: Var. Ancaq hamısına dost demək olmaz. Başqa yeni tanışlar meydana çıxdı.

M. Aslan: Mən dedim ki, qeyri-adi bir dördlük idi və hər kəsin heyrət etdiyi bir dördlük idi. Söhbəti tənhalığa gətirib çıxarmışkən ümumiyyətlə tən-

halıq nədir, şair tənhalığı nədir sizin aləminizdə?

B. Vahabzadə: Çox dəhşətli sualdır. Ən çox qorxduğum şey təklikdir. Ruhən, fikrən tək qalmaq.

M. Aslan: Türk soyunun Bəxtiyarı olduğunuz üçün ağlınıza borclusunuz, yoxsa ürəyinizə?

B. Vahabzadə: Daha çox ürəyimə. Ürək insanı yaşamağa qoymur. (hönkürtü ilə ağlayır)

M. Aslan: İndi hər şey balacalaşıb, söz ucuzlaşıb. Sözün bu devalvasiyasında neynəyirsiniz, bir mübarizə yolunuz var, yoxsa yox?

B. Vahabzadə: Bizim əlimizdən nə gəlir? Yazmaq. Mən bu yaxınlarda bir şeir yazmışdım: *"Söz alağı"*. Çap olundu da. Mənim pyeslərimdə bu vicdan məsələsi qırmızı xətt kimi keçir.

M. Aslan: Elə bütün əsərlərinizdə var.

B. Vahabzadə: Vicdan olan yerdə insan ikiləşir. Vicdan olmayan yerdə isə ikiləşmir. Amma vicdan kimdə olur? Əxlaqlı adamda. Əxlaqsız adamın vicdanı olmaz. Amma əxlaqlı adamda ikinci səs var. O, bir hərəkət edir və eyni zamanda qəlbinin dərinliyindən bir səs deyir ki, düz eləmirsən, dayan!

Mənim başqa bir pyesim vardı. *"Hara gedir bu dünya"*. O pyesdə isə ulu əcdad özünü göstərirdi. Hərdən ulu əcdad səhnəyə gəlirdi. Düşün ki, sən belə bir ölkənin, belə bir nəslin, belə bir millətin oğlu deyildin. Mən axı sənin əcdadınam, biz belə olmamışıq. Orda əcdad deyir ki, bizim dilimizlə, ürəyimiz arasında məsafə olmayıb. Amma sizin dilinizlə ürəyiniz arasında milyon kilometrlərlə məsafə var. İçinizdən gələn səs dilinizə gələnə qədər dombalaq aşmalıdır, fırlanmalıdır, sonra ağızda bişirib deməlisən sən bunu.

M. Aslan: Bir var övlad qayğısı, bir var millət qayğısı, bir də var dövlət qayğısı. Qəribədir ki, mən istəmədən hamısı qafiyəli sözlərdir. Hansından daha çox yararlanmısınız, hansından daha

Vicdan olan yerdə insan ikiləşir. Vicdan olmayan yerdə isə ikiləşmir. Amma vicdan kimdə olur? Əxlaqlı adamda. Əxlaqsız adamın vicdanı olmaz. Amma əxlaqlı adamda ikinci səs var. O, bir hərəkət edir və eyni zamanda qəlbinin dərinliyindən bir səs deyir ki, düz eləmirsən, dayan!

çox bəxtiyarsınız? Bəxtiyar bəy hansından daha çox bəxtiyar olub bu qayğıların? Çünki qayğı ömrün bu çağında daha çox rol oynayır.

B. Vahabzadə: Doğrusu, sənə deyim ki, ailəmdən də, övladlarımdan da çox razıyam, Allaha şükür. Amma əsas məsələ qalır, o yük bizim boynumuza qalır, sənət adamlarının dövlət qayğısı, millət qayğısı, vətən qayğısı, bax bu qayğı ən böyük qayğıdır. Allah bizi bu qayğıdan məhrum eləməsin. Əgər biz bu qayğıdan məhrum olsaq onda əlimizə qələm ala bilmərik.

M. Aslan: Bəxtiyar bəy, mən çox sevindim ki, gəlib sizi elə həmişəki duru üzdə gördüm. Biz ona "tükü duru" deyirik. Tükü duru gördüm sizi, Allaha çox şükür. Və sözünüzün ahəngi, ləngəri çox könlümü aldı, Allah mənə imkan versin sizinlə üçüncü söhbətə də çıxım.

B. Vahabzadə: Allah qoysa!..

Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşümdən təxminən 4 il keçir, o xoş görüşün təəssüratı hələ də qəlbimdə canlıdır. O qədər canlıdır ki, ona həsrət duyacağam. Çünki Bəxtiyar bəy özündə güc tapıb o xəstəliyi ayağının altına qoymuşdu. Həzrət Peyğəmbərimiz deyir ki, "Qocalıq bütün dərdlərin cəmləşdiyi limandır". O da şair qocalığı ola. Şair onsuz da dərd çəkir. Bəxtiyar bəy deyir ki, mənim dərdim qurtaranda özüm bir dərd düzəldib onunla bölüşməyə başlayıram. Döğrudan da dərdsiz şairin şairliyinə mən inanmıram.

ŞEİR — Görən hara gedir ?

Bəxtiyar Vahabzadə

Qorxu kölgəsinə sığınmış bu gün
Sədaqət, diyanət, məhəbbət, Allah.
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət, Allah.

Əyri əyriliyi yeridir daşa,
Keçib əyrilikdə hamıdan başa.
Doğru həsrət qalıb isti bir aşa,
Görən hara gedir bu millət, Allah.

Həftələr dəyişdi, günlər dəyişdi,
Tərəflər dəyişdi, yönlər dəyişdi.
Qiblələr dəyişdi, dinlər dəyişdi,
İtə ot verilir, ata ət, Allah.

Ünvanı dəyişib rəzalətin də,
Qaymaq da satılır şor qiymətində.
İndi sədaqətin səltənətində,
Əyləşib hökm edir xəyanət, Allah.

Ha çığır, ha bağır, yalan ayılmaz,
Yaxşını yamandan ayıran olmaz.
Satsan, üzünə də baxan tapılmaz,
Necə ucuzlaşıb ləyaqət, Allah.

Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.
Oğrular, əyrilər zəmanəsində,
Əyrilik sayılır, fərasət, Allah.

Prof. Dr. Nizami CƏFƏROV

AZƏRBAYCAN XALQININ ÖZ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏSİ TARİXİNƏ DAİR

Azərbaycan xalqı ilk orta əsrlərdən başlayaraq, sahəsi yüz min kvadrat kilometrlərlə ölçülən geniş bir ərazidə formalaşmışdır ki, buraya Şimali Azərbaycan (Azərbaycan Respublikası), Cənubi Azərbaycan (İran Azərbaycanı), Qərbi Azərbaycan (Ermənistan Respublikası), Şərqi Anadolu, Borçalı, Cənub-Şərqi Dağıstan və s. daxildir.

Hər bir xalqın ümumi tarixinin çox mühüm hissəsini onun öz ərazi bütövlüyü uğrunda mübarizəsi tarixi təşkil edir. Etnik coğrafiya, yaxud bu və ya digər xalqın, millətin iqtisadi-təsərrüfat, sosial-siyasi və mənəvi-mədəni varlığının, özünüifadə və özünütəsdiqinin əsas göstəricilərindən biridir.

Azərbaycan xalqı ilk orta əsrlərdən başlayaraq, sahəsi yüz min kvadrat kilometrlərlərlə ölçülən geniş bir ərazidə formalaşmışdır ki, buraya Şimali Azərbaycan (Azərbaycan Respublikası), Cənubi Azərbaycan (İran Azərbaycanı), Qərbi Azərbaycan (Ermənistan Respublikası), Şərqi Anadolu, Borçalı, Cənub-Şərqi Dağıstan və s. daxildir. Həmin coğrafiyanın etnik tarixi barədəki müasir el-mi təsəvvürləri biri digəri ilə bağlı olan üç fundamental problemin qarşılıqlı əlaqədə nəzərdən keçirilməsini tələb edir:

1) Orta əsrlərin əvvəllərindən başlayaraq sonlarına qədər davam edən boyük bir dövrdə Azərbaycan xalqının formalaşdığı coğrafiyanın hüdudlarının müəyyənləşməsi.

2) Həmin coğrafiyada xalqın etnososial maraqlarından irəli gələn siyasi-inzibati (dövlət) nəzarəti mexanizm və ya strukturlarının qərarlaşması, əraziyə etnoqrafik sahiblik hissinin siyasi sahiblik ideologiyasına çevrilməsi;

3) Müxtəlif xarakterli daxili çəkişmələr, xarici müdaxilələr nəticəsində Azərbay-

canın etnosiyasi bütövlüyünün pozulması, ölkə ərazisinin imperiya maraqlarına uyğun olaraq parçalanması.

Əlbəttə, orta əsrlərin sonlarına doğru Azərbaycan xalqının bu və ya digər dərəcədə sabit etnoqrafiyası müəyyənləşməsəydi, həmin coğrafıya üzərində özünəməxsus etnosiyasi (inzibati) nəzarət sistemi də qərarlaşmaz, dövlətçilik ideologiyası formalaşmazdı. Və bütün bunların mövcudluğu şəraitində ölkəyə olunan müdaxilələr laqeyd qarşılanmadığı kimi, işğallar da milli coğrafi bütövlük uğrunda mübarizə ideologiya və texnologiyalarını doğurmalı idi. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan tarixşünaslığı, ümumən ictimai-tarixi təfəkkürü Azərbaycan xalqının öz ərazi bütövlüyü uğrunda mübarizəsi tarixinə son illərə qədər olduqca ehtiyatla yanaşmış, tarixşünaslıqda (və ictimai-tarixi təfəkkürdə) Azərbaycan xalqının öz maraqlarından daha çox onun ərazi bütövlüyünə müdaxilə etmiş imperiyaların maraqları üstünlük təşkil etmişdir.

Azərbaycan Respublikasının müstəqillik qazanması, azərbaycançılığın dövlət ideologiyasına çevrilməsi, dünya azərbaycanlılarının birliyi, mütəşəkkilliyi uğrunda mübarizə artıq Azərbaycanın ərazi bütövlüyü probleminə obyektiv baxmağı, problemin tarixini "necə varsa o cür" öyrənməyi tələb edir.

Azərbaycan xalqının öz ərazi bülövlüyü uğrunda mübarizəsi tarixi, tamamilə təbiidir ki, Azərbaycan xalqının təşəkkül-formalaşma prosesinin keyfiyyət həddinə çatdığı, etnocoğrafiyasının müəyyənləşdiyi dövrdən başlayır. Azərbaycan xalqının təşəkkülü məsələsi hələ də Azərbaycan tarixşünaslığının ən mürəkkəb problemlərindən biri olaraq qalmaqdadır. Problemin həlli üçün göstərilən elmi-metodoloji cəhdləri, əsasən, aşağıdakı prinsip, yaxud mövqelərin bu və ya digər dərəcədə qərarlaşmasına gətirib çıxarmışdır;

1. Azərbaycan xalqı e.ə. I minilliyin ortalarından etibarən, xüsusilə Atropatena dövründə İran mənşəli etnoslar əsasında formalaşmış, eramızın əvvəllərindən başlayaraq Azərbaycan ərazisinə köç edib burada məskunlaşan türklər tədricən İran mənşəli

Azərbaycan xalqını "türkləşdirmiş", nəticə etibarilə təxminən XI-XIII əsrlərdə İran mənşəli (və türkdilli) Azərbaycan xalqı təşəkkül tapmışdır (İ. Əliyev, Ə. Sumbatzadə).

2. Ən qədim dövrlərdən Azərbaycan ərazisində məskunlaşmış türk tayfaları, eləcə də eramızın ilk əsrlərindən başlayaraq müxtəlif mərhələlərdə həmin əraziyə köçüb gələn türklər qaynayıb qarışaraq, təxminən I minilliyin ortalarında türk mənşəli (və türkdilli) Azərbaycan xalqının əsaslarını yaratmışlar (Y. Yusifov, S. Əlyarlı, T. Hacıyev).

3. Azərbaycanda e.ə. II minilliyin sonu I minilliyin əvvəllərinə qədər, əsasən, Qafqaz, e.ə. I minilliyin sonu b.e. I minilliyinin əvvəllərinə qədər isə, əsasən, İran etnosları üstünlük təşkil etmiş, Azərbaycan ərazisinin müəyyən hissəsinin də daxil olduğu geniş bir coğrafiyada məskunlaşmış türklərin etnosiyasi diferensiasiyası nəticəsində I minilliyin sonu II minilliyin əvvəllərindən etibarən türk mənşəli (və türkdilli) Azərbaycan xalqı formalaşmışdır ki, uzun zaman davam edən həmin proses Ölkədə qədim dövrlərdən yaşayan bir sıra Qafqaz, eləcə də İran etnoslarının türk mənşəli (və türkdilli) Azərbaycan xalqı tərkibində inteqrasiyası ilə getmişdir (N. Cəfərov).

Bizim fikrimizcə, Azərbaycan xalqının etnogenezisi məsələsinə biri digərindən bu qədər fərqli mövqelərdən yanaşılması yalnız problemin özünün mürəkkəbliyi (o mənada ki, Azərbaycan ərazisində qədim zamanlardan türk, Qafqaz, İran mənşəli xalqlar məskunlaşmışlar) ilə bağlı deyil, həmçinin ideoloji və ya metodoloji- kon-

septoloji konyuktura ilə əlaqədardır.

Etnologiya elminin çoxsaylı müşahidələri, təhlilləri göstərir ki, xalqların əmələgəlmə-təşəkkül prosesi, hər şeydən əvvəl, etnocoğrafi diferensiasiyasının nəticəsidir; bu isə o deməkdir ki, Azərbaycan xalqı ən qədim zamanlardan Azərbaycan ərazisində yaşayan, yaxud bu əraziyə gələrək məskunlaşan müxtəlif mənşəli etnosların inteqrasiyasının məhsulu deyil; haqqında bəhs olunan inteqrasiya prosesinə yalnız türk mənşəli Azərbaycan xalqının təşəkkülü kimi genişmiqyaslı etnocoğrafi hadisənin tərkib hissəsi olaraq baxdıqda hansısa obyektiv qənaətə gəlmək mümkündür.

Türk etnosunun coğrafi-siyasi diferensiasiyası, məlum olduğu kimi, iki səviyyədə baş verir:

1) makrodiferensiasiya - türklərin a) Şərq (karluq), b) Şimal-Qərb (qıpçaq) və c) Cənub-Qərb (oğuz) türklərinə diferensiasiyası;

2) mikrodiferensiasiya – müstəqil türk xalqlarının formalaşması.

Birinci səviyyə I minilliyin ortalarından başlayaraq II minilliyin əvvəllərinə qədər davam edir. Əsas türk xalqları isə II minilliyin ortalarına doğru, yenidən diferensiasiya prosesinin nəticəsində formalaşırlar ki, bu zaman Cənub-Qərb (oğuz) türkləri Türkiyə türkləri, Azərbaycan türkləri və türkmənlərə bölünmüş olurlar.

Azərbaycan xalqının etnosiyasi coğrafiyasının müəyyənləşməsi prosesi XV əsrin sonu XVI əsrin əvvəllərində artıq başa çatır, Əvvəl Qaraqoyunlu, sonra Ağqoyunlu, daha sonra isə tarix səhnəsinə daha boyük etnosiyasi güc (və iddialar) ilə çıxmış Səfəvilər Azərbaycanın tarixi hüdudlarını müəyyənləşdirirlər. Şimalda Dağıstan ve Gürcü xalqları, Qərbdə Osmanlı türkləri, Cənubda isə farslarla qonşu olan azərbaycanlıların Şərq hüdudlarını Xəzər dənizi təşkil edir.

Azərbaycan xalqının öz ərazi bütövlüyü uğrunda mübarizəsinin beş yüz illik tarixi üzərində apardığımız müşahidə-təhlillər göstərir ki, ərazi bütövlüyü üçün təhlükə yaratmış (və həmin bütövlüyü pozmuş) əsas amillər aşağıdakılardır;

1) daxili çəkişmələr;
2) xarici müdaxilələr.
3) siyasi- ideoloji özgələşmə.

Azərbaycan xalqnın öz ərazi bütövlüyü uğrunda mübarizəsi tarixi aşağıdakı dövrlərdən keçmişdir:

I.Səfəvilər dövrü (XVI əsrin əvvəllərindən XVIII əsrin ortalarına qədər).

II. Xanlıqlar dövrü (XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər).

III. Azərbaycanın Şimalının Rıisiya, Cənubunun isə İran tərkibində olduğu dövr (XIX əsrin əvvəllərindən XX əsrin sonlarına qədər).

IV. Müasir dövr (XX əsrin sonu XXI əsrin əvvəlləri).

Azərbaycan xalqının etnosiyasi coğrafiyasının müəyyənləşməsi prosesi XV əsrin sonu XVI əsrin əvvəllərində artıq başa çatır, Əvvəl Qaraqoyunlu, sonra Ağqoyunlu, daha sonra isə tarix səhnəsinə daha boyük etnosiyasi güc (və iddialar) ilə çıxmış Səfəvilər Azərbaycanın tarixi hüdudlarını müəyyənləşdirirlər.

ŞEİR

Ömür, Zaman, İsraf

Eldar KƏRİMOV

Açılmış səhərim min bir ümidlə,
Bu gün bu işləri görəcəm deyə,
Ömrümdə xeyirli əməllər ilə
Yıxılmaz qalalar hörəcəm deyə.

Bir gündə yüz işi görmək istədim,
Yüz gündə bir işi görə bilmədim.
Yıxılmaz qalalar hörmək istədim,
Bir daşı daş üstə hörə bilmədim.

Boş ümid ömrümün günahıdırsa,
Ümidlə sabahı yaşatmışam mən.
Bu günlər dünənin sababahıdırsa,
Deməli özümü aldatmışam mən.

Boş vaxtlar axtardıq işdən doyunca,
Boşluq zamanda yox, boş işdə olur.
Boş işlər görənlər ömrü boyunca,
Həyatda hər zaman enişdə olur.

Bir ömür bir andır, bir an bir ömür,
Xoşbəxtlik bir andır, bədbəxtlik bir an.
Əsirlik ömür də bir ana dönür,
Qədri bilinmədən yaşanan zaman.

Əzəldən belədir, gələnlər gedib,
Qorxmuram dünyada öləcəyimdən.
Qorxuram ömrümü bihudə verib,
Allaha əliboş dönəcəyimdən.

Zaman var-dövlətdən biçilib baha,
Bir an, min manata verilməz hədər.
Pulun israfından qorxmuram daha,
Zaman israfından qorxduğum qədər.

OXU VƏ DÜŞÜN

XƏLİFƏ VƏFAT ETDİ ÇÖLDƏ ƏDALƏT QALMADI

Şamdan yola çıxan ticarət karvanı cənuba tərəf gedərkən bir yerdə qonaqlayır. Qonaqladıqları yerdə bir heyvan sürüsü və sürünün başında da bir çoban vardı. Sürünün çobanı karvanın Şamdan gəldiyini öyrəndikdə onlardan soruşur:

"- Xəlifəmizin başına bir iş gəldimi?" Karvandakılar:

"- Yox. Biz yola çıxdıqda sağ-salamat vəzifəsinin başında idi." –deyirlər.

Çoban aldığı cavabla qane olmur. Çox kədərli idi. Lakin artıq sual vermir. Karvan yoluna davam edir və qarşıdakı bir kəndə çatır. Kənddə Ömər bin Əbdüləzizin vəfat etdiyi xəbərini alan karvandakı adamlar heyrətlənirlər. Yadlarına çoban düşür. Səhranın ortasında yaşayan bir çoban xəlifənin öldüyünü hardan bilmişdi?

Karvandakılardan biri dostlarından izin alaraq çobanı axtarmağa gedir. Atını sürətlə onu qoyub gəldikləri yerə çapır. Çobanı tapır. Qəm dəryasına batmış çoban:

"- Xeyir ola? Nə isə yaddan çıxıb?" deyə soruşur. Adam cavab verir:

"- Yox. Sən xəlifənin başına bir iş gəldiyini soruşmuşdun. Biz yox demişdik. Kəndə çatdıqda isə öyrəndik ki, xəlifə Ömər vəfat edib. Sən bu xəbəri ucsuz-bucaqsız səhrada hardan aldın?"

Bu xəbəri eşidən çoban ağlamağa başlayır.

"- Mən uzun illərdir ki, bu bölgədə çobanlıq edirəm. Ömər bin Əbdüləziz xəlifə olduğu günlərdə qurdlar sürümüzə hücum etmirdilər. Heyvanlarımızla qurdlar birlikdə gəzirdilər. Bundan anladıq ki, xəlifə çox adil bir hökmdar olacaq. Siz gəlməzdən bir gün əvvəl qurdlar qoyun sürümüzə hücum etdilər, bir neçə qoyunumuz tələf oldu. Biz də anladıq ki, Ömər bin Əbdüləziz vəfat edib."

Elşən RZAYEV
elshanrza@hotmail.com

UNUTDUQCA TƏKRARLANIR BƏLALAR

İstər şəxsi həyatda, istərsə də cəmiyyət həyatında baş verən hadisələr mütləq şəkildə daha əvvəl də baş verənlərin təkrarıdır. İlk insan Adəm Peyğəmbərdən bəri tarix minlərlə hadisələrin şahidi olmuşdur. Heç şübhəsiz ki, bu və ya digər şəkildə bu hadisələr bir-birlərinə müəyyən mənada oxşar hadisələrdir. Sual yarana bilər ki, bəs bu hadisələr niyə təkrarlanır? İnsan kəlməsi bir görüşə görə "nisyan", yəni unutmaq kəlməsi ilə eyni kökdəndir. "Nisyan" unutqanlığı, yaddaşsızlığı ifadə edir. Və bütün hadisələr əslində daha əvvəl olanların unudulması səbəbilə baş verir.

Tarix isə heç nəyi unutmur, ancaq bəzən tarixi unutdururlar. Bir millətin tarixini unutması isə kiçilmək deməkdir! Kiçilmək, dəyərini itirməkdir.

Nəyə görə faciələrimizə bu qədər etinasızıq? Nəyə görə tarixin inkaredilməz həqiqətlərini dünyaya çatdıra bilmirik? Ermənilər əsassız genosidlərinə dünyanı inanandırdıqları halda, niyə biz yaxın tariximizdəki Xocalı qəddarlığını lazımi şəkildə tanıda bilmirik?

Bəlkə bu, bizim faciəmizi milliləşdirə bilməməkdən irəli gəlir. Bəlkə də, biz ümummilli ideya arxasında birləşə bilmirik!

Tarixə nəzər saldıqda görürük ki, tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gəlmişdir. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir. Bu faciələr, yalnız ildönümlərində gündəmə gətirilməməlidir.

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza

Tarixə nəzər saldıqda görürük ki, tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gəlmişdir. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir. Bu faciələr, yalnız ildönümlərində gündəmə gətirilməməlidir.

məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

XX əsrdə azərbaycanlılar müntəzəm olaraq erməni terroruna, erməni soyqırımına məruz qalmışdır. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra zorla ikiyə bölünmüş Azərbaycanın şimalına, yəni Rusiyaya birləşdirilmiş ərazisinə İrandan, Türkiyədən və qeyri-ölkələrdən erməni ailələr köçürülmüşdür. Qafqazın bəzi ərazilərində də onlara yer verilmiş, yaşayış üçün də hər cür şərait yaradılmışdır.

XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə məskunlaşmış, beləliklə də azərbaycanlılar öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulmuş, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir.

Ötən əsrdə dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1989-cu illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırım və deportasiya siyasəti onu göstərir ki, ermənilərin xalqımıza olan tarixi münasibəti dəyişməyib və dəyişməyəcək.

1905-1907-ci illər birinci rus inqilabı dövründə çarizm öz hakimiyyətini qorumaq üçün milli ədavətləri qızışdırdı. Bundan ermənilər yararlandılar və əsrlər boyu çörəyini yedikləri, suyunu içib, torpağında yaşadıqları azərbaycanlılara qarşı tarixdə görünməmiş qırğına başladılar. 1905-ci il hadisələrində ermənilər azərbaycanlıları qırırdı və bu vəziyyətə rus hakimiyyəti biganəliklə baxırdı. Ermənilər Bakıda, Şamaxıda, Gəncədə, Qubada, Lənkəranda, Qarabağda, Zəngəzurda və başqa yerlərdə qırğınlar törətmişdilər. Tarixi faktlar göstərir ki, ermənilər azərbaycanlıları çox böyük qəddarlıqla, özlərinə məxsus amansızlıqla öldürmüşlər.

1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda otuz mindən çox əhalini erməni vəhşiləri xüsusi amansızlıqla qətlə yetirmişlər.

Ümumiyyətlə, XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı, ermənilər tərəfindən qətlə yetirilmiş, öz ev-eşiyindən zorla qovulmuşdur.

Mart qırğını zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyidi tapılmışdır.

Tariximizə 31 mart qırğını kimi daxil olmuş bu dəhşətli hadisə xalqımızın tarixinə qanlı hərflərlə yazılmışdır.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə mərhum prezident Heydər Əliyevin 27 mart 1998-ci il «31 mart Azərbaycanlıların Soyqırımı haqqında» fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırım günü elan edilmişdir. Bu hadisələri, onların dərslərini unutmağa haqqımız yoxdur.

Lokman Helvacı
lokman_helvaci@windowslive.com

GƏLƏN QALMAZ, GEDƏN GƏLMƏZ

Yağış yağar, otlar bitər, uşaqlar doğular, analarının, atalarının yerini tutar. Sonra da hamısı məhv olub gedər. Hadisələrin ardı-arası kəsilməz. Bir-birini təqib edər. Göydə xəbər var, yerdə ibrətli şeylər var. Yer üzü sərilmiş bir döşək, göy üzü yüksək bir tavandır. Ulduzlar hərəkət edər, dənizlər yerində dayanar. Gələn qalmaz, gedən gəlməz.

İstisnasız olaraq hər birimizin başına gələcək ölüm hamımızın həll etməyə məcbur olduğu bir müəmmadır. Yaradılışın sirr və hikməti ilə insanın gerçək mahiyyətini qavramaq istəyiriksə həyat və ölümün həqiqi mənalarını dərk etməyə çalışmalıyıq.

Dünyanın aldadıcı bir məkan, axirətin isə ölümsüz bir həyat oluşunu. Hər şeyin fani olduğunu, əbədi olanın ancaq uca Allah olduğunu. Bir sözlə həyat və ölümün mənasını anladan bu gözəl nəsihəti xatırlamaq yerinə düşərdi: Peyğəmbərimiz (s.ə.s) əshabına hikmət və fəsahət sahibi olan Quss bin Saidədən danışaraq belə buyurmuşdur:

"Quss bin Saidənin Ukaz bazarında bir dəvənin üzərində insanlara belə dediyini görmüşdüm: «Ey insanlar! Gəlin, dinləyin, yaxşı düşünün və ibrət alın. Yaşayan ölər, ölən fani olar, olacaq da olar. Yağış yağar, otlar bitər, uşaqlar doğular, analarının, atalarının yerini tutar. Sonra da hamısı məhv olub gedər. Hadisələrin ardı-arası kəsilməz. Bir-birini təqib edər. Göydə xəbər var, yerdə ibrətli şeylər var. Yer üzü sərilmiş bir döşək, göy üzü yüksək bir tavandır. Ulduzlar hərəkət edər, dənizlər yerində dayanar. Gələn qalmaz, gedən gəlməz. Görəsən, getdikləri yerdən razı olduqları üçün orada qalırlar, yoxsa yorulub yatırlarmı…

Ey İyad qəbiləsi! Atalarınız və babalarınız hanı? Hanı bəzəkli kaşanələr, hanı daşdan evlər tikən Ad və Səmud? Hanı dünya həyatından məğrur olub öz qövmünə üz tutaraq: «Mən sizin ən böyük Rəbbinizəm!» -deyən Firon və Nəmrud?

Bu yer onları dəyirmanında üyütdü, toz etdi. Sümükləri belə çürüyüb dağıldı,

evləri də yıxılıb xaraba qaldı. Yerlərində indi köpəklər oynayır. Əsla, onlar kimi qafil olmayın! Onların yolu ilə getməyin. Hər şey fanidir, ancaq uca Allah əbədidir!

Ölüm bulağının girəcək yerləri çoxdur, ancaq çıxacaq yeri yoxdur…"

Ölüm hər bir insanın öz qiyamətidir. Bəlkə də kiçik qıyamət. Ömrümüzün axırında əldən gedənlərə həsrət, min bir çırpınış və peşmanlıq içərisində olmaq istəmiririksə kiçik qiyamətimizdən əvvəl oyanaq ki, peşman olanlardan olmayaq! Hər gün cənazə səhnələrini seyr etdiyimiz halda, ölümü özümüzdən çox uzaq hesab etməyək. Bəlkə də hamıya eyni məsafədədir ölüm. Əzrayılın qapımızı nə vaxt döyəcəyini bilmirik.

Elə isə Hz. Peyğəmbərin ölmədən əvvəl ölün sözünü gözəl dərk edib ölümdən qorxmaqdansa, ölümü də, həyatı da yaradana üsyan edib Onun qəzəbinə düçar olmaqdan qorxaq. Elə isə ölməzdən əvvəl nəfslərimizi tamamən öldürə bilməsək də tərbiyə edə-edə ram etməyə çalışaq. Ancaq belə olarsa, dünyaya olan meylimizi və məhəbbətimizi azalda bilər, axirətə daha yaxşı hazırlaşa bilərik. Axirətə gedən yol isə ölümdən keçdiyinə görə ondan qaçmağın heç bir mənası yoxdur.

Su səhəngi su yolunda qırılar

Ağıllı insan Peyğəmbərimiz (s.ə.s)-in *bu hədisini diqqətə alan insandır: "Hər kəs yaşadığı hal üzrə ölür, ödlüyü hal üzrə də həşr olunur."* (Münavi, Feyzul-Qadir, V, 663) Son nəfəs hər birimiz üçün müəmmadır və bütöv bir ömrün xülasəsi ona sığdırılır sanki. İnsan son nəfəsdə özünü tamamilə tanıyır. Həyatın qayəsi isə Allaha yaxşı bir bəndə olaraq yaşamaq və can verə bilməkdir. Yəni, dünyadan imanla köçə bilmək, lə iləhə illallah deyərək ruhu təslim edə bilməkdir. Lakin bunun asan olub-olmayacağını bilmirik. Rəbi bin Heysəm –rəhmətullahi əleyh- in bu xüsusdakı müşahidəsi çox mənalıdır: *"Bir dəfə can verən bir adamın yanında idim. Mən lə iləhə illallah deyib təlqin etdikcə, o sanki bunu eşitmir, pul sayan adamlar kimi barmaqları ilə nə isə hesablayırdı."*

Allah təalanın qəlbimizin dünyəvi ləzzətlərə aldanaraq əbədi aləmdə məhrumiyyət içində qalmamağımız üçün biz bəndələrini xəbərdarlıq etdiyi bu ayeyi-kərimə ilə yazımızı yekunlaşdıraq:

"Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan (şeytan) da sizi tovlayıb yoldan çıxarmasın!" (əl-Fatir, 5)

ŞEİR

ÖLÜM

Davud MUSAZADƏ

İlahi qanun oldu,
Bənizlər tamam soldu.
Ölüm haqqa bir yoldu,
Ey yaranmış insanlar.

Qaça bilməz əmrdən,
Buyurulub bu əzəldən.
Ruhlar çıxar bədəndən,
Ey yaranmış insanlar.

Cəsəd qalar torpaqda,
Məhşər günündə o da,
Cana gələr bir anda,
Ey yaranmış insanlar.

Allahın hökmü budur,
Hamı hüzurda durur,
Sorğu-sual olunur,
Ey yaranmış insanlar.

Haqq dostlarının nümunəvi əxlaqından

AXİRƏTİ DÜNYADAN ÜSTÜN TUTMAQ

İnsan dünya nemətlərinin arxasınca gedərək iman və fəzilət həyatı yaşamamaqla, ancaq özünü tələf etmiş olur. Düşünmək lazımdır ki, nə dünyada ölümdən qaçacaq bir zaman və məkan, nə qəbirdə geri dönəcək bir imkan, nə də qiyamətin şiddətindən qorunacaq bir sığınacaq var.

Hər mömin yaxşılıq gördüyü kimsəyə imani bir vəzifə olaraq minnətdarlıq hissi duyar, təşəkkür və dua edər. İmkan olduqda isə ona daha gözəl şəkildə qarşılıq vermək istəyər. İkram edilən bir stəkan su üçün də nəzakət gərəyi təşəkkür etmək lazımdır.

Ayeyi-kərimədə:

"Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz." (ən-Nəhl, 18) buyurulur. Şübhəsiz ki, bu nemətlərin ən böyüyü "iman"dır. Hər nemətin bir əvəzi və qarşılığı olduğu kimi, iman nemətinin əvəzi də həmd, şükür, zikr, ixlas və təqva üzrə bir qulluq həyatı yaşamaqdır.

Mömin ona bəxş edilən bütün nemətlərin və xüsusən də "iman"ın şükür adlanan əvəzini Rəbbinə ödəmək məcburiyyətindədir. Çünki əvəzi ödənməyən bir şeyə sahib olduğunu iddia etmək əbəs yerə məşğuliyyətdir.

İman ilahi lütflərin ən böyüyüdür. İmtahan isə bu nemətin hansı nisbətdə qiymətini bildiyimizi, ona nə qədər sahib çıxa bildiyimizi ölçən bir meyardır. Bu, həmçinin ilahi mükafatlara nail olmağın əvəzidir. Ayeyi-kərimədə buyurulur:

"Allah, möminlərin canlarını və mallarını onlara vəd edilmiş cənnət müqabilində satın almışdır." (ət-Tövbə, 111)

Dünyada keçirilən vaxt axirətin sonsuzluğu yanında bir zərrə və ya bir damla belə deyil. Lakin dünya imtahanının nəticəsi ya səadət yurdu olan cənnət, ya da əbədi bir cəfa yeri olan cəhənnəmdir. Bəndənin yolçuluğunun hansı istiqamətdə olacağı bu fani həyatda "axirəti və ya dünyanı" seçməsindən asılıdır. Bu baxımdan qısa dünya həyatında axirəti seçməkdə qəflət göstərməkdən daha böyük bir aldanış ola bilməz.

Haqqa yaxınlığın nuru ilə qəflətdən oyanmış olan Allah dostları isə, kainat kitabının hər hərfini könül gözü ilə və hikmət nəzərilə oxuyurlar. Kainatın ülvi bir qayə ilə var edildiyini, heç bir şeyin boş və əbəs yerə yaradılmadığını, hər ötən günün ömür təqvimindən bir yarpaq qoparıb insanı qəbrə bir addım da yaxınlaşdırdığını yaxından idrak edərlər. *"Həyat nemətinin məna və hikməti nədir? Dünya nə üçün insan oğlunun əmrinə verildi? İki qapılı bir ev olan bu cahana haradan gəldik, səfərimiz haradır?"* kimi suallar üzərində təfəkkür edərək ömürlərini incə, dərin və həssas bir ruhani hal ilə yaşayarlar.

QƏLBİ-SƏLİMİN ƏLAMƏTİ

Qiyamət günündə ən çox möhtac olduğumuz şeyi uca Rəbbimiz belə bəyan edir:

"O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!" (əş-Şüəra, 88-89)

Qəlbi-səlimə nail ola bilmək qəbir aləmindən dəvətnamə gəlmədən əvvəl axirət yolçuluğuna hazırlanmağa bağlıdır. Ona görə qəlbi Allahdan uzaqlaşdıran hər şeydən təmizləmək, saflaşdırmaq və dünyada bəxş edilən hər neməti axirət səadətinin sərmayəsinə çevirmək lazımdır.

Haqq dostları qəlbi-səlimin ən mühüm iki vəsfini belə ifadə etmişlər:

1. Heç kimi incitməmək, heç kimdən inciməmək. Çünki qəlb ilahi nəzərgahdır.

2. Dünya və axirət işləri qarşı-qarşıya gəldiyi zaman axirət işini üstün tutmaq.

DÜNYALARI VERSƏLƏR DƏ BİR AXİRƏT ƏMƏLİ İLƏ DƏYİŞMƏRİK!..

Musa (ə.s) Fironun sarayında bolluq içində yaşayarkən Fironun onu öldürmək istədiyini xəbər almış və dərhal yanına heç bir azuqə almadan Mədyən istiqamətində yola çıxmışdı. Düz səkkiz gün ac-susuz yol getmiş, taqətsiz bir halda Mədyən qalasının qarşısına gəlib çıxmışdı. O qədər çarəsiz idi ki, nəhayət:

"Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyrə möhtacam!" (əl-Qəsəs, 24) deyə yalvarırdı. Sonra orada kim olduqlarını bilmədiyi Şüeyb (ə.s)-ın qızlarına, qoyunlarına su verməkdə kömək etdi. Həzrət Şüeyb bunu eşitdikdə onu evinə yeməyə dəvət etdi. Həzrət Musa səkkiz gündən bəri mədəsinə bir loğma da olsun girmədiyinə baxmayaraq, qarşısına qoyulan yeməyə əl uzatmadı. Həzrət Şüeybə də:

"- Biz elə bir ailəyik ki, bütün dünyanı versələr də, bir axirət əməlinə dəyişmərik! Mən sizə bu yemək üçün deyil, Allah rizası üçün kömək etdim." dedi.

Şüeyb (ə.s) bu cavabdan çox məmnun oldu və:

"Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz." (ən-Nəhl, 18) buyurulur. Şübhəsiz ki, bu nemətlərin ən böyüyü "iman"dır. Hər nemətin bir əvəzi və qarşılığı olduğu kimi, iman nemətinin əvəzi də həmd, şükür, zikr, ixlas və təqva üzrə bir qulluq həyatı yaşamaqdır.

"- Bu ikramımız etdiyin yaxşılıq üçün deyil, Allah qonağı olduğun üçündür." buyurdu. Bundan sonra Musa (ə.s) ikramı qəbul etdi.

Haqq dostlarından birinə ona çox təsir edən hər hansı bir hadisə ilə qarşılaşıb qarşılaşmadığı haqqında soruşulduqda belə cavab vermişdi:

"Məkkeyi-Mükərrəmədə pul kisəmi itirib möhtac vəziyyətdə qalmışdım. Bəsrədən pul gələcəkdi, onu gözləyirdim, ancaq hələ də gəlməmişdi. Saç-saqqalım da bir-birinə qarışmışdı. Bir bərbərə gedərək:

"- Pulum yoxdur, Allah rizası üçün saç-saqqalımı düzəldə bilərsən?" dedim.

O əsnada bərbər bir adamın başını qırxırdı. Yandakı boş yeri göstərib: *"Buyur otur."* dedi və müştərisini gözlədərək mənim başımı qırxmağa başladı. Gözlədilən müştəri etiraz etdikdə isə:

"- Bağışlayın, sizin işinizi pul qarşılığında görürdüm, lakin bu şəxs Allah rizası üçün saçını kəsdirmək istədi. Allah üçün olan işlər daim ilk növbədə və maddi heç bir qarşılıq olmadan yerinə yetirilməlidir. Allah üçün görülən işin qarşılığını bəndə əsla verə bilməz" dedi.

Bərbər işini bitirdikdən sonra zorla cibimə bir miqdar pul da qoydu və:

"- Zəruri ehtiyaclarını həll edərsən. Bağışla, gücüm buna çatır." dedi.

Bir müddət keçdi, nəhayət Bəsrədən gözlədiyim pul gəldi. Bir kisə qızıl götürüb bərbərin yanına getdim və qızılları ona vermək istədim. Bərbər:

"- Əsla almaram! Allah üçün olan işin qarşılığını ödəməyə bəndələrin gücü çat-maz. Siz bunlarla öz ehtiyaclarınızı həll edin, Allah köməyiniz olsun." dedi.

Hallallaşıb ayrıldım, lakin düz qırx ildir ki, səhər vaxtlarında onun üçün dua edirəm."

Bax budur Allah üçün edilən bir əməli dünyalara dəyişməməyin fəziləti…

ƏSL AĞILLI KİMDİR?

Hədisi-şərifdə həqiqi ağıl sahibləri belə tərif edilir:

"Ağıllı adam nəfsinə hakim olub onu hesaba çəkərək ölümdən sonrası üçün çalışan; axmaq isə nəfsini istəklərinə tabe etdiyi halda Allahdan (xeyir) umandır." (Trmizi, Qiyamət, 25/2459)

Bəli, bir insanın nə qədər sağlam ağıl sahibi olduğu bu həqiqətlər işığında ölçülməlidir. Sağlam ağıl əbədini fanidən üstün tutar.

Peyğəmbərimiz (s.ə.s) belə buyurur:

"Axirətin yanında dünyanın halı sizdən birinin barmağını dənizə batırıb çıxarması kimidir. Barmağınızla (dənizdən) nə çıxarda bildinizsə dünya da elədir." (Hakim, Müstədrək, 4/319)

Əshabi-kiram Məkkə dövründə müşriklərin təzyiq və zülmü altında ikən öz-özlərinə:

"O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!"

(əş-Şüəra, 88-89)

"Biz Rəbbimizə bəndə ola bilmək üçün hər cəfaya qatlanırıq. Allaha üsyan edən kafirlər isə dünyada rifah içində rahatlıqla gəzir, dünya mənfəətlərini istədikləri kimi istifadə edirlər." dedilər. Buna görə Rəbbimiz möminlərə dünyadan daha çox xeyirli olan axirəti seçmələrini əmr etdi:

"(Ya Rəsulum!) küfr edənlərin diyar-diyar gəzib dolaşması (xoş güzəran keçirməsi) səni aldatmasın! Bu, (axirət nemətləri ilə müqayisədə) azacıq bir mənfəətdir. Sonra isə onların məskəni cəhənnəmdir. Ora necə də pis yataqdır! Lakin öz Rəbbindən qorxanları (ağacları) altından çaylar axan cənnətlər gözləyir ki, onlar orada Allah qonağı kimi həmişəlik qalacaqlar. Allah yanında olan nemətlər yaxşı əməl sahibləri üçün daha xeyirlidir." (Ali-İmran, 196-198)

Dolayısıyla axirət pəncərəsindən baxıldıqda dünyanın bütün rahatlığı və zövq-səfası azacıq bir mənfəətdən ibarətdir. Əgər dünyanın Allah qatında bir dəyəri olsaydı, uca Allah ən çox sevdiyi bəndələri olan Peyğəmbərlərini qiyamətə qədər saraylarda rifah içində yaşadardı. Lakin Allah təala Peyğəmbərlərinə və saleh bəndələrinə fani dünyanın həqiqi üzünü göstərmiş və onların qəlblərini dünyadan daha çox xeyirli olan axirətə yönləndirmişdir.

Rəsulullah (s.ə.s) buyurur:

"Mənim dünyadakı halım bir ağacın altında kölgələnən, sonra da yoluna davam edən bir yolçu kimidir." (Tirmizi, Zöhd, 44)

Nəbəvi tərbiyə ilə yetişən Əshabi-kiramın həyat tərzi də bu xüsusda bizə misilsiz bir nümunədir. Onların axirət yurdunu arzulamaları və şəhid olmaq həvəsləri dillərə dastandır:

Allah Rəsulunun islama dəvət məktubunu amansız cəlladların arasından keçərək kralların qarşısında iman cəsarətiylə oxuyan gənc səhabələrin gözündən dünya arzusu silinmiş, ən kiçik hüceyrələrinə qədər bütün varlıqlarına Allah və Rəsulunun məhəbbəti hopmuşdur. Peyğəmbərimizə elə ürəkdən bağlıydılar ki, ölüm təhlükəsi olduğu anlarda belə:

"Ya Rəsulallah! Sən necə istəyirsən elə hərəkət et, bizə əmr et. Biz həmişə sənlə bərabərik. Səni Peyğəmbər olaraq göndərən Allaha and olsun ki, sən dənizə girsən biz də sənlə bərabər girərik, heç birimiz geri qalmarıq!.." deyirdilər. (İbn Hişam, II, 253-254)

Bugünkü insanların dünyada rahatlıq içində və uzun müddət yaşaya bilmə arzu və tələşının əksinə olaraq səhabə nəslinin ən böyük arzusu üz ağıyla, vicdan rahatlığıyla və saf bir qəlb ilə axirətə köçə bilməkdi.

Allah Rəsulu (s.ə.s) müxtəlif səbəblərlə tez-tez: *"Allahım! Həqiqi həyat yalnız axirət həyatıdır."* buyururdu. (Buxari, Riqaq, 1)

Onun ümməti olan biz də bu düsturu könüllərimizə nəqş etmək məcburiyyətindəyik. Hər hansı fani bir nemətə qovuşduğumuz zaman: "Allahım! Həqiqi həyat

Allah təala nəfsin xoşlandığı dünyəvi mənfəətləri əslində bir imtahan səbəbi olaraq qarşımıza çıxarır. Bu mənfəətlərə aldanmaq eynilə balığın qarmağa düşməsinə bənzəyir. Balıq gördüyü yemə aldanır, ancaq yemin içində gizli olan qarmağı görmür.

yalnız axirət həyatıdır." deyərək nemətlərin əsl sahibinə şükür etməliyik və öyünməkdən, azğınlıqdan və qəflətdən qorunmalıyıq.

Həmçinin, möminlər olaraq hər hansı bir müsibət və ya bəla ilə qarşılaşdığımız və səbrimizin daşdığı anlarda da: *"Allahım! Həqiqi həyat yalnız axirət həyatıdır."* deyərək riza, təslimiyyət, səbir və təvəkkül ilə mətanətimizi və ruhi tarazlığımızı qorumalıyıq. Daim Rəbbimizə sığınaraq:

"…Dünyanın ləzzəti və faydası azdır, lakin müttəqilər üçün axirət daha xeyirlidir…" (ən-Nisa, 77) şüuru içində rahat bir qulluq həyatı yaşamalıyıq.

Bu qısa ömür içində ediləcək ən ağıllı iş Haqqa gözəl bir qulluqdur. Lakin bütün nemətlər kimi həyat nemətinin də qiyməti əlimizdən çıxmadan lazımınca anlaşıla bilməz.

Loğman Həkimin bu nəsihəti çox mühümdür:

"Övladım! Axirətin üçün dünyanı fəda et ki, hər ikisində də qazanasan. Ancaq əsla dünyan üçün axirətini fəda etmə, hər ikisini də itirərsən."

Həqiqətən də dünya və axirət bir tərəzinin iki gözünə bənzəyir. Birinə daha çox əhəmiyyət verildikdə, digəri zəifləyir. Sağlam ağıl sahibi olan hər möminin könlü daim axirətə meyil etmək məcburiyyətindədir. Çünki dünyanın fani istəklərinə və içiboş həvəslərinə ram olub onunla xoşbəxt olanın qəlbindən axirət sevgisi və düşüncəsi çıxar. Axirətə dəvət səsi qəlbə yerləşdikdə isə dünyaya dəvət fikri könlə yadlaşır.

QƏBAHƏT DÜNYADA DEYİL, ONA ALDANANDADIR…

Allah təala nəfsin xoşlandığı dünyəvi mənfəətləri əslində bir imtahan səbəbi olaraq qarşımıza çıxarır. Bu mənfəətlərə aldanmaq eynilə balığın qarmağa düşməsinə bənzəyir. Balıq gördüyü yemə aldanır, ancaq yemin içində gizli olan qarmağı görmür.

Məhz bu tələni görməyənlər ona aldanmaqdan qurtulmazlar. Nə qədər ayağın sürüşdüyü, nə qədər iradələrin yox olduğu ilahi imtahanlardan müvəffəqiyyətlə keçə bilmək dünyəvi mənfəətlərin iç üzünü görə bilməyə və onlardakı "imtahan sirri"ni sezə bilməyə bağlıdır. Bu fərasəti əldə edə bilmək üçün isə sərvət, şəhvət və şöhrət kimi dünyanın cazibəli tələlərinə qarşı oyanıq olub həyatın istənilən mərhələsində axirət yurdunu seçə bilmək şərtdir.

Rəbbimiz bu xüsusda bizi belə tənbeh edir:

"Lakin siz (ey insanlar!) dünyanı üstün tutursunuz! Halbuki axirət daha xeyirli və daha baqidir." (əl-Əla, 16-17)

Dünyada əldə edilən zənginlik sahibinə ən çox qəbrə qədər yoldaşlıq edər. İnsanın dünyadan qəbrə apara biləcəyi yeganə şey kəfəndir. Bu, məsələnin zahiri tərəfi. Əslin-

"…Dünyanın ləzzəti və faydası azdır, lakin müttəqilər üçün axirət daha xeyirlidir…" (ən-Nisa, 77) şüuru içində rahat bir qulluq həyatı yaşamalıyıq.
Bu qısa ömür içində ediləcək ən ağıllı iş Haqqa gözəl bir qulluqdur. Lakin bütün nemətlər kimi həyat nemətinin də qiyməti əlimizdən çıxmadan lazımınca anlaşıla bilməz.

də isə insan imanı və əməllərilə qəbrə girəcəkdir. Ona görə də dünyanın vəfasız sərvətinə güvənməmək, müvəqqəti zövqlərinə aldanmamaq lazımdır.

Allah Rəsulu (s.ə.s) biz ümmətinə bu hikmətli nəsihəti vermişdir:

"...Sizə beş əsası vəsiyyət edirəm ki, Allah onlar ilə sizin üçün xeyirlərinizi kamala çatdırsın: Yeyə bilməyəcəyiniz şeyləri yığmayın; içərisində yaşamayacağınız evlər tikməyin; sabah tərk edib gedəcəyiniz şeylərdən ötrü başqaları ilə çəkişməyin; Hüzuruna qovuşub hüzurunda toplanacağınız Allahdan qorxun; gedəcəyiniz və orada əbədi qalacağınız yer üçün hazırlıq görün." (Əli əl-Müttəqi, Kənzul-Ummal, 1363)

Xülasə, son nəfəsdə aldandığını dərk edib dünyanı günahlandırmaq faydasızdır. İnsan dünya nemətlərinin arxasınca gedərək iman və fəzilət həyatı yaşamamaqla, ancaq özünü tələf etmiş olur. Bitməz-tükənməz arzular, gəlib-keçici sevdalar və fani ləzzətlər uğrunda sonsuz bir istiqbalı ziyan etmək necə də həzindir. Düşünmək lazımdır ki, nə dünyada ölümdən qaçacaq bir zaman və məkan, nə qəbirdə geri dönəcək bir imkan, nə də qiyamətin şiddətindən qorunacaq bir sığınacaq var.

Haqq təala hamımızı dünyəvi imtahan təcəlliləri qarşısında ixlasını qoruduğu fərasət və bəsirət sahibi təqvalı bəndələrindən etsin! Dünya və axirəti saleh bəndələrinə göstərdiyi kimi həqiqi mənası ilə görə bilməyimizi, həyatın hər mərhələsində qəlbən axirətə dönə bilməyimizi lütf və kərəmiylə ehsan etsin!..

Amin!

MUHAMMED MUSTAFA (SAV)

İnsanlığa son sığınak,
Can Muhammed Mustafa'dır.
Dört bir yanda bayrak bayrak,
Şan Muhammed Mustafa'dır.

Yaratan'a didar idi,
Medar-ı iftihar idi,
Nebilikte serdar idi,
Ön Muhammed Mustafa'dır.

Zannederek pek uzakta
Gönül yaslı, can firakta,
Şefkat yüklü her şafakta,
Tan Muhammed Mustafa'dır.

O'nun kutlu aşkı ile
Yıldızla ay gelir dile,
Aydınlanır gece bile,
Gün Muhammed Mustafa'dır.

Dindirir gönülde ahı,
Daim müjdeler felahı,
Şefaatte şahlar şahı
Han Muhammed Mustafa'dır.

Ümit edip şefaati,
Gönderelim salavatı.
Uyan artık doğu batı,
Din Muhammed Mustafa'dır.

Kutlu çağın uyandığı,
Ruhun aşka boyandığı,
Sevgilerin dayandığı
Yan Muhammed Mustafa'dır.

Sırlar gizli hırkasında,
Nice resul arkasında,
Peygamberlik halkasında
Son Muhammed Mustafa'dır...

Bestami YAZGAN

Prof. Dr. M. Yaşar Kandemir

PEYĞƏMBƏR SEVGİSİ

Onu necə sevməli?

Mömin olan kəs Peyğəmbərini candan da əziz tutmalıdır. Bunu Allah təala istəyir.

Onu ata-anasından, övladından və bütün insanlardan daha çox sevməlidir.

Həm Allahı, həm də Rəsulullahı kainatdakı hər şeydən daha çox sevmədikcə həqiqi mömin adını almaq mümkün deyildir. Hz. Məhəmmədi sevməyi labüd qılan bir çox səbəb vardır; amma bunların üçü çox əhəmiyyətlidir:

1. O, aləmlərə rəhmət olaraq göndərilmişdir.

2. Allah təala onu ən üstün əxlaqa sahib qılmışdır.

3. Onu özümüzə örnək götürməyi əmr etmişdir.

Onun ümmətinə düşkünlüyü

Hər Peyğəmbərin məqbul bir duası vardır. Bütün Peyğəmbərələr bu dualarını dünyada ikən etmişlər. Yalnız Sevimli Peyğəmbərimiz bu duasını qiyamət günündə ümmətinə şəfaət etmək üçün axirətə saxlamış və beləcə ümmətini nə qədər çox sevdiyini göstərmişdir.

Çünki o, ümmətinə çox düşkündür;

Möminlərə qarşı çox şəfqətli və mərhəmətlidir;

Möminlərin sıxıntıya düşmələri ona ağır gəlir.

Onu sevməyin faydaları

Peyğəmbər sevgisi bir mömini cənnətə aparacaq böyük sərmayədir. Bu hadisə dediklərimizdən xəbər verir:

Bir adam Peyğəmbərimzin yanına gələrək qiyamətin nə vaxt qopacağını öyrənmək istədi. Rəsulullah ona cavab vermək yerinə qiyamət üçün nə hazırladığını soruşdu. Adam elə bir hazırlığı olmadığını, yalnız Allahı və Rəsulunu sevdiyini söylədi. Bu cavabdan sonra Peyğəmbər -səllallahu əleyhi və səlləm- ona:

"Elə isə sən sevdiklərinlə bərabər olacaqsan" buyurdu. Əshabi-kiram bu müjdəyə həddən artıq sevindi.

Onun yaxınlarını da sevməli

Peyğəmbəri sevmək onun Əhli-beytini, yəni ev xalqını da sevməyi labüd qılır. Çünki Rəsuli-Əkrəm bizə iki əhəmiyyətli əmanət buraxdığını, bunlardan birinin Qurani-Kərim, digərinin Əhli-beyti olduğunu söylədi və Əhli-beytinə ehtiramla yanaşmağımızı istədi.

Peyğəmərimizin Əhli-beyti onun xanımları və özündən sonra sədəqə almaları haram olan əqrəbasıdır.

Peyğəmbəri sevmək onun yolunu və sünnəsini izləməklə və onun kimi yaşamağa çalışmaqla mümkündür.
Allahın Elçisi sünnəsini yenidən dirildib yaşatmağa çalışan kimsənin onu sevmiş olacağını, onu sevənin də cənnətdə Peyğəmbərlə birlikdə olacağını söyləmişdir.

Bunlar əmisi Əbu Talibin uşaqları, Hz. Əlinin, Aqilin, Cəfərin və əmisi Abbasın ailəsidir.

Sünnəsinə ehtiramla yanaşmalı

Peyğəmbəri sevmək onun yolunu və sünnəsini izləməklə və onun kimi yaşamağa çalışmaqla mümkündür.

Allahın Elçisi sünnəsini yenidən dirildib yaşatmağa çalışan kimsənin onu sevmiş olacağını, onu sevənin də cənnətdə Peyğəmbərlə birlikdə olacağını söyləmişdir.

Peyğəmbərimizə dərin hörmət göstərməyi Allah təala əmr etməkdədir.

Aşağıdakı misal bunu açıq göstərməkdədir:

Bir gün Peyğəmbərimiz səhabəsi Səid bin Muallaya səslənmişdi. Səid o an namaz qıldığı üçün Rəsulullaha dərhal cavab verə bilməmiş, namazını bitirdikdən sonar Peyğəmbər (s.ə.s)-in hüzuruna getmişdi.

Rəsuli-Əkrəm ona səsləndiyi zaman nə üçün cavab vermədiyini soruşdu. Səid namazda olduğunu dedikdə, Allahın Rəsulu həm ona, həm də digər müsəlmanlara bu ayəni oxudu:

"Həyat verəcək şeylərə sizi çağırdığı zaman Allaha və Rəsuluna tabe olun!"

Demək ki, o səhabə namazda olsa da Rəsulullahın onu çağırdığını eşitdiyi an namazını pozmalı və ona cavab verməliydi.

Peyğəmbərə salətu-salam gətirməli

Peyğəmbərə ehtiram göstərən ona salətu-salam gətirməlidir. Aşağıdakı ayə bizə bu vəzifəmizi xatırladır:

"Allah və mələkləri Peyğəmbərə salət edərlər. Ey möminlər! Siz də Ona salətu-salam gətirin."

Allahın Peyğəmbərə salət etməsi, ona mərhəmət etməsi, şan və şərəfini ucaltmasıdır.

Mələklərin ona salət etməsi, "Allahım! Peyğəmbərini uca mərtəbələrə çatdır!" deyə niyaz etmələridir.

Möminlərin ona salətu-salam gətirməsi isə, "Allahummə salli alə Muhəmmədin və alə əli Muhəmməd" deməsi və ya "Allahummə salli" duasını oxumasıdır.

Əziz Peyğəmbərimizə bir salətu-salam gətirənin qazancı nə olar? Bunu Allahın Rəsulundan dinləyək:

"Mənə salətu-salam gətirənə:
Allah təala on dəfə rəhmət edər;
on günahı bağışlanar;
mənəvi mərtəbəsi on dərəcə yüksəldilər."
"Yanında adım çəkildiyi halda mənə salətu-salam gətirməyən kəs ən xəsis adamdır."

Əshabın ona ehtiramı

Rəsuli-Əkrəmə ən böyük sevgini və ehtiramı Əshabi-kiram göstərmişdir.

Onlar Allahın Elçisini narahat etməmək üçün yanında alçaq səslə danışır;

başlarının üstündə bir quş varmış kimi onu sükunətlə dinləyir;

Allahın Elçisi təraş olarkən saçının bir telinin belə, yerə düşməsinə razı olmazdılar.

Daha sonra gələn nəsillər də eyni məhəbbət və hörməti davam etdirdilər.

Abidə əs-Səlmani (ö. 72/691) tabiun nəslinin ən öndə gələn fəqih və mühəddislərindən biri idi. Peyğəmbərimizin vəfatından iki il əvvəl müsəlman oldu, fəqət onu görmək səadətinə qovuşa bilmədi. Abidənin bu sözü ilk müsəlmanların ona duyduğu sevgini çox gözəl anladır:

"Yanımda Rəsulullahın saçının bir telinin olması mənim üçün dünyanın bütün sərvətindən daha dəyərlidir."

Altınoluk Aprel 2008
Tərcümə: Saleh Şirinov

Rüfət ŞİRİNOV
rufet_80@hotmail.com

"SALƏBƏ HƏDİSİ"NDƏN GÜNÜMÜZƏ ƏKSLƏR

Qloballaşan kapitalist dünyada hər şey maddi güc üzərinə bina edilib. İnsanların dəyəri artıq bu güclə müəyyənləşir və ona görə qiymət qazanır. Hətta ailədaxili münasibətlərdə də kapitalist güc öz təsirini göstərir. Təbii ki, bu arzu edilməz hal müsəlmanlara da sirayət edir. Əlbəttə, islam dini əsla varlı və güclü olmağa qarşı deyil, əksinə hər zaman buna təşvir edir. Şanlı Peyğəmbərimiz güclü və zəngin müsəlmanın zəif müsəlmandan daha yaxşı və daha faydalı olduğunu ifadə etmişdir. (Müslim Qədər 34.)

İslam dinində maddi güc məqsəd deyil, vasitədir. Yəni əbədi səadətə çatmaq üzün bir körpüdür. Könül insanları insan və maddiyyat əlaqəsini su və gəmiyə bənzədirlər. Gəminin üzməsi üçün suya ehtiyac var, amma su gəminin içinə dolduğu zaman fəlakət baş verər. Maddiyyat da belədir. Maddi varlıq cibdən qəlbə keçərsə, insanın mənliyini itirməsinə və məqsədindən uzaqlaşmasına səbəb olar, nəticədə dünya onu udar və yox edər. İslam dininə görə hər şey məqsədinə uyğun istifadə edildikdə rəhmət, əks halda isə bədbəxtçilikdir. Bu təhlükəni ən gözəl şəkildə anladacaq bir hədisi nəzərinizə çatdırmaq istəyirəm. Hədisin mətni uzun olduğu üçün ixtisarla verirəm. Hədisin şərhi oxucuya aiddir.

Rəvayət edildiyinə görə Saləbə bin Xətib Peyğəmbərimizdən *"Ya Rəsulallah! Allaha dua et, mənə var-dövlət versin"*- deyə xahiş edir. Peyğəmbər (s.ə.s) sanki gələcəkdə olacaq təhlükəni hiss edirmiş kimi, ona belə cavab verir. *"Ya Saləbə, şükrünü əda etdiyin az mal, şükür edə bilməyəcəyin çox maldan daha yaxşıdır."* Amma Saləbə Peyğəmbərdən yenə eyni şeyi istəyir. Bunun müqabilində Peyğəmbər ona bu cavabı verir: *"Ya Saləbə! Məni örnək götürmək istəmirsən? Allahın Rəsulu kimi olmaq istəmirsən? Canımı əlində tutan Allaha and içərək deyirəm ki, əgər istəsəydim dağlar mənim üçün qızıl və gümüş olardı."* Ancaq könlünü mal-mülk sevdasına həsr edən Saləbə yenə israrla var dövlət istədiyini dilə gətirərək belə deyir: *"Səni haqq din ilə göngərən Allana and olsun ki, mənə var dövlət vermək üçün Allaha dua etsən, hər haqq sahibinə haqqını verəcəm."* Bu qədər isrardan sonra Peyğəmbər (s.ə.s) *"Ey Allahım! Saləbəyə var-dövlət ver!"*-deyə dua edir və Allah Saləbəyə qoyun-quzu nəsib edir.

Bu qoyunlar sürətlə artıq. O qədər artıq ki, Mədinəyə sığmadığı üçün Saləbə daha geniş əraziyə köçmək məcburəyyətində qalır.

Məscidə olan sevgi və bağlılığına görə *"Məscid quşu"* ləqəbi verilən Saləbə artıq

İslam dinində maddi güc məqsəd deyil, vasitədir. Yəni əbədi səadətə çatmaq üçün bir körpüdür. Könül insanları insan və maddiyyat əlaqəsini su və gəmiyə bənzədirlər. Gəminin üzməsi üçün suya ehtiyac var, amma su gəminin içinə dolduğu zaman fəlakət baş verər. Maddiyyat da belədir.

məşğuləyyətindən ötrü sadəcə ikindi namazını məsciddə camaatla, digərlərini isə evdə qılır. Qoyun sürüləri durmadan artır. Saləbə artıq sadəcə cümə namazlarını məsciddə qılmağa başlayır və nəhayət cümə namazına da gəlməməyə başlayır. Məscid quşu artıq məscidə uğramaz olur.

Nəhayət Peyğəmbərimizin zəkat toplamaq üçün göndərdiyi zəkat məmurlarına: *"bu etdiyiniz xərac almaqdır"* -deyərək dünya hərisliyinin gözünü necə kor etdiyini dilə gətirir. Müxtəlif bəhanələrlə zəkat verməkdən boyun qaçırır.

Məmurlar vəziyyəti Peyğəmbərə danışdıqda çox kədərlənərək: *"Saləbəyə yazıq oldu"*-dedi. Allah bu ayələri nazil etti: (Münafiqlərin) bəzisi də Allahla belə əhd etmişdir: **"Əgər Allah bizə Öz nemətindən (mal-dövlət) bəxş etsə, biz mütləq sədəqə (həmin malın zəkatını) verəcək və sözsüz ki, əməlisalehlərdən olacağıq. (Allah) Öz nemətindən onlara (istədiklərini) ehsan buyurduqda xəsislik etdilər və (əhdə vəfa etməyib itaətdən də) üz döndərdilər. Onlar elə zatən dönükdürlər!. (Allaha) verdikləri vədə xilaf çıxdıqlarına, yalan danışdıqlarına görə Allah da onların ürəyinə qarşılaşacaqları günə (qiyamət gününə) qədər (davam edəcək) nifaq saldı.**(ət-Tövbə, 75-77)

Saləbə bunu eşiddikdə çox peşman olur. Peyğəmbərin hüzuruna çıxaraq zəkat vermək istəsə də Peyğəmbər (s.ə.s) "Allah sənin malını qəbul etmir" -deyərək geri qaytarır. Qısa bir müddət sonra Peyğəmbərimiz vəfat edir. Saləbə zəkatını xəlifələr olan Hz. Əbu Bəkrə, Hz. Ömərə, Hz. Osmana verməyə çalışsa da onlar Peyğəmbərin almadığı zəkatı geri çevirdilər. (Rəvayətin tamamı üçün bax. İbn Həcər, Usdul-ğabə, I cild səh. 284-285)

Unutmayaq ki, mal-mülk, oğul-uşaq, hamısı Allah tərəfindən bizə verilən imtahan vasitəsidir. Hər şeydə hədəf Allah rizasıdır. Allah bizi şükrünü əda edə bilməyəcəyimiz var- dövlətdən qorusun!

Dr. Mehman İSMAYILOV

NÜBÜVVƏTİN QAYƏSİ

Hz. Adəmdən Hz. Məhəmmədə qədər bütün Peyğəmbərlərə verilən nübüvvətdəki ortaq nöqtə, insanı mükəmmələ və kamilliyə sövq etməkdir. Qövmlərdəki əxlaqi böhranları düzəltmək istər Allah-insan; istərsə də insan-təbiət münasibətlərini ilahi bilgilər çərçivəsində nizamlamağı zəruriləşdirir.

Bildiyimiz kimi iman əsaslarından biri də Allahın insanlara əmr və yasaqlarını təbliğ etmək üçün göndərdiyi Peyğəmbərlərə iman etməkdir. Nübüvvət ağlın və duyğuların qavramadığı sahəyə qapı açan bir göz kimidir.[1] İnsanların dünya və axirət həyatlarıyla bağlı işlərini doğru şəkildə nizamlamaları üçün Allah insanlara Peyğəmbərlər göndərmişdir. Peyğəmbərlər ümumiyyətlə toplumda bəşəri münasibətlərin pozulduğu zamanlarda, yəni əxlaqi çöküş zamanlarında göndərilmişdir. Onlar toplumdakı əxlaqi pozulmanı düzəldərək, insanları birlik və bərabərlik, sülh və əmin-amanlıq içərisində yaşamağa yönəldirlər. Bəşəri münasibətlərin necə olacağını, ya da necə olması lazım oldğunu birbaşa öz şəxsiyyətlərində göstərən Peyğəmbərlər insanlara ən gözəl örnəyin necə olacağını göstərən üstün insanlardır. Buna görə də peyğəmbərlik çalışmaqla əldə edilmir, başqa cür desək kəsbi deyil, vəhbidir:

"Bu, Allahın istədiyinə ata etdiyi mərhəmətdir (kərəmdir). Allah çox böyük mərhəmət (kərəm) sahibidir!"[2]

Quran bütün toplumlara və ümmətlərə bir Peyğəmbər göndərildiyini bildirir:

"Doğrudan da, Biz səni haqla (Quranla) müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik."[3]

"(Ya Rəsulum!) Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə peyğəmbərlər göndərmişdik..."[4]

Bu peyğəmbərlərin göndərilməsinin əsas gayəsi tövhiddir. Yəni Allahın birliyi prinsipini zədələyəcək hər bir inanc, düşüncə və davranışdan həssaslıqla uzaq durmaqdır:

"Biz hər ümmətə: "Allaha ibadət edin,

Tağutdan çəkinin! - deyən peyğəmbər göndərmişdik. Onlardan bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə (Allahın əzəli elmi ilə) haqq yoldan azmalı olmuşdur. (Ey müşriklər!) Yer üzündə dolaşıb görün ki, (peyğəmbərləri) yalançı hesab edənlərin axırı necə oldu!"[5] Ayədəki "Allaha ibadət etmək" ifadəsi insanın Ona duyduğu məsuliyyət hissini, məsuliyyət anlayışını ifadə edir. Bu əmr, bütün əxlaqi əmr və qadağaları əhatə edir. Eyni zamanda əxlaqın qaynağı və təməli olduğu kimi, hər ümmət üçün yenilənən tövhid dininin də dəyişməyən əsas mesajıdır.

Hz. Adəmdən Hz. Məhəmmədə qədər bütün Peyğəmbərlərə verilən nübüvvətdəki ortaq nöqtə, insanı mükəmmələ və kamilliyə sövq etməkdir. Qövmlərdəki əxlaqi böhranları düzəltəmək istər Allah-insan; istərsə də insan-təbiət münasibətlərini ilahi bilgilər çərçivəsində nizamlamağı zəruriləşdirir. Hədəfin və əməl olunacaq şeyin eyni olması demək, prinsip və əqidənin də eyni olması deməkdir. Bütün Peyğəmbərlər Allahın varlığı və birliyini (tövhid), nübüvvət və axirətin varlığını açıq şəkildə bildirmişlər. Quran da Peyğəmbərlərin hamısına ortaq xüsusiyyətlərin vəhy edildiyini bildirir:

"(Ya Peyğəmbər!) Allah: "Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin!" - deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi"[6]

Bütün Peyğəmbərlərin təbliğ etdiyi dinin iman əsasları da eynidir. Bütün Peyğəmbərlərin təbliğatının əsas ünsürü tövhiddir: (*Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" - deyə vəhy etməyək"*[7] "Uca Allahın insanlara peyğəmbər göndərməyə başlamasından bu yana inanc sisteminin əsasını tövhid meydana gətirir. Bunda heç bir dəyişiklik, heç bir fərq yoxdur. İlahlıqla Rəbliyi bir-birindən ayırmaq mümkün deyildir. Həm ilahlıqda, həm də ibadətdə şirkə yer yoxdur. Bu prinsip, ümumbəşər qanunlar sistemi kimi qalıcı və dəyişməzdir. Tövhid bu qanunlar sisteminə bağlıdır, onun bir parçasıdır."

Allah təala hər bir müsəlmana, aralarında hər hansı bir fərq qoymadan bütün peyğəmbərlərə inanmağı fərz buyurmuşdur: *"(Ey möminlər, yəhudi və xaçpərəstlərin sizi öz dinlərinə dəvət etmələrinə cavab olaraq) belə deyin: "Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun övladına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) peyğəmbərlərə verilən şeylərə (möcüzələrə) inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!"*[8]

Buna görə də peyğəmbərlərin bir hissəsinə inanıb, digərlərini təsdiq etməmək küfr sayılmışdır: *"Allahı və peyğəmbərlərini inkar edənlər, Allahı peyğəmbərlərindən ayırmaq istəyənlər. "Biz peyğəmbərlərdən bəzisinə inanır, bəzilərinə isə inanmırıq",- deyənlər və bununla (iman ilə küfr) arasında bir yol (məzhəb) tapmaq istəyənlər -Bütün bunlar, həqiqətən, kafirdirlər. Biz (axirətdə) kafirlərdən ötrü alçaldıcı əzab hazırlamışıq!"*[9]

---

1. Ebu Hamid Muhammed b. Muhammed Gazali, Dalaletten Hidayete: el-Munkızu Mined-Dalal, İnceleme, Ahmet Subhi Fırat, Şamil Yay., İstanbul: 1972, s. 79.
2. əl-Cumuə, 4.
3. əl-Fatir, 24.
4. ən-Nəhl, 63.
5. ən-Nəhl, 36.
6. əş-Şura, 13.
7. əl-Ənbiya, 25.
8. əl-Bəqərə, 285.
9. ən-Nisa, 150-151.

Prof. Dr. Muammer ERBAŞ

KİMLƏRİ SEVMƏLİYİK?

Özünü sevməyən insan başqalarını da sevə bilməz. İnsanın özünü sevməsi maddi və mənəvi cəhətdən ideal, sağlam və xoşbəxt olmasıdır. İnsan maddi cəhətdən güclü olmalıdır. Yəni, bədəni yöndən sağlam olmalı, başqasına möhtac olmamalıdır. Mənəvi cəhətdən də bilikli, inanclı və əxlaqlı olmalı, bunun üçün səy göstərməlidir.

Sevgi Allah tərəfindən insana verilmiş ən üstün bir duyğudur. Sevgi xoşbəxtliyin açarıdır. Sevgi ictimai asayişin təminatıdır. İnsanın sağlam bir sevgiyə sahib ola bilməsi üçün kimləri necə sevməli olduğunu bilməsi də mühüm xüsusdur. Belə ki;

a) İnsan ilk növbədə özünü sevməlidir: Özünü sevməyən insan başqalarını da sevə bilməz. İnsanın özünü sevməsi maddi və mənəvi cəhətdən ideal, sağlam və xoşbəxt olmasıdır. İnsan maddi cəhətdən güclü olmalıdır. Yəni, bədəni yöndən sağlam olmalı, başqasına möhtac olmamalıdır. Mənəvi cəhətdən də bilikli, inanclı və əxlaqlı olmalı, bunun üçün səy göstərməlidir. Hər birimiz ilk növbədə özümüzdən məsuluq (əl-Ənam, 6).

Özünü sevməyən insan maddi və mənəvi yöndən inkişaf edə bilməz. Məhz buna görə də hər iki cəhətdən o qədər də yaxşı halda olmayan bir insan dostuna, yoldaşına və ölkəsinə faydalı ola bilməz. Çünki belələrinin özü yardıma möhtacdır.

b) İnsan öz ailəsini sevməlidir: Hz. Peyğəmbər *"Hamınız çobansınız, ailə fərdlərindən məsulsunuz"* (Buxari, 55 Vəsayə, 9) buyurmuşdur.

İnsan öncə həyat yoldaşını sevməlidir. Çünki ömrü boyu bir yastığa baş qoymaqda, onunla qədərini paylaşmaqda və ən gizli sirlərini bilməkdədir. Qarşılıqlı olan bu əlaqə insanın axirətini də müəyyənləşdirir. Elə isə həyatı paylaşdığımız insanı sevəcək, bunu ona söyləyərək iltifat edə-

cəyik. Başqasına olan hirsimizi evdə həyat yoldaşımızdan çıxmamalıyıq. Ona qarşı ədalətli olmalı, onu başqalarının ayağına verməməliyik. Onunla məsləhət edərək planlarımızı paylaşmalı, hər şeyi birlikdə etməliyik. Çünki ər-arvad arasında uzlaşma yoxdursa, o ailədən və orada yetişən uşaqlardan xeyir gəlməz.

Ailədə yoldaşımızdan sonra uşaqları sevməliyik. Peyğəmbər (s.ə.s) belə buyurur: *"Kimin uşağı varsa, onunla uşaqlaşsın!"* (Feyzul-Qadir, VI, 271) Lakin burada da onların tərbiyəsi xüsusunda səhlənkarlıq göstərməməyə diqqət edilməlidir. Onları həqiqi mənada sevmək, onları özünü idarə edə biləcək səviyyədə yetişdirmək deməkdir. Bunu da unutmamaq lazımdır ki, onların maddiyyatdan daha çox mənəviyyata ehtiyacı var.

c) İnsan öz ata-anasını sevməlidir: Çünki ata-anaya qarşı yaxşı rəftar etmək Allahın əmridir. Bu xüsus Qurani-Kərimdə Allaha itaətlə yanaşı zikr olunur. (əl-İsra, 23-24) Hz. Peyğəmbərimizdən ən yaxşı əməlin nə olduğu soruşulduqda buna *"Vaxtında qılınan namaz və ata-anaya yaxşılıq"* deyə cavab vermişdir. (Müslim, I, 89) Bu mövzuda valideynlərin başqa dinə mənsub olması bizə əngəl olmamalıdır. Peyğəmbərimiz Əsma binti Bəkrə bütpərəst olan anasını ziyarət etməsini və onun ehtiyaclarını yoluna qoymasını tapşırmışdı. (Buxari, Ədəb 8)

d) İnsan qohumlarını və yaxınlarını sevməlidir: Dinimizdə qohumluq və qonşuluq əlaqələrinin çox mühüm yeri vardır. Qurani-Kərimdə də qohumlara yaxşılıq etməyi təlqin edən ayələr vardır.

İnsanları sevməyə və onlara yaxşılıq etməyə əvvəlcə öz yaxınlarımızdan başlamalıyıq. İslamda zəkat, sədəqə və s. kimi yaxşılıqların ilk növbədə insanın yaxınlarından başlayaraq həyata keçirməsi lazımdır. Qohumlarla ünsiyyət insan üçün arxadır, dayaqdır. Öz yaxınlarını və qohumlarını sevməyən, onlarla maraqlanmayan kəslərin millət və ölkələrini sevməsi də düşünülə bilməz.

e) İnsan öz millətini sevməlidir: İnsan sosial bir varlıqdır. Onun sosial mühitini ilk növbədə öz milləti formalaşdırır. İnsanın xoşbəxtliyi millətin xoşbəxtliyinə, millətin xoşbəxtliyi də onu formalaşdıran fərdlərin xoşbəxtliyinə bağlıdır. Belə olan təqdirdə hər kəs öz millətini sevməli, rahat bir həyat sürmək üçün iş birliyi etməlidir.

Millət sevgisi əlbəttə ki, sözdən ibarət olmamalıdır. Milləti sevmək millətin yoxsul və kimsəsiz fərdlərinə yardım etməklə mümkündür. Yaşlılara hörmət göstərməklə mümkündür.

f) İnsan bütün müsəlmanları sevməlidir: Eyni inancı, eyni ibadətləri və eyni duyğuları paylaşan müsəlmanlar Hz. Peyğəmbərin ifadəsiylə bir darağın dişləri kimi bir-biri ilə mütənasiblik təşkil etməlidir.

g) İnsan bütün bəşəriyyəti sevməlidir: Müsəlman olan kəs bütün insanları sevməlidir. Çünki bizim düsturumuz Mövlananın ifadəsiylə *"Yaradılanı sev, Yaradandan ötrü"* şəklindədir.

Allahı sevmək Onun yaratdığı hər şeyi sevməkdir. Onun yaratdığı ən qiymətli varlıq insan olduğu üçün Allahı sevmək insanı da sevməyi gərəkli qılır. Hətta insanlar içərisindən doğru yolda olmayanları da sevməliyik. İnanc yönündən bizdən fərqli olanları da sevməliyik. Onlarla aramızda olan fərqlilikləri deyil, ortaq tərəflərimizi düşünərək hər kəsə dəyər verməliyik.

Bu barədə Quran ayəsində belə buyurulur: **"Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur."** (əl-Maidə, 32) Həzrət Peyğəmbər də **"İnsan oğlu Allahın əsəridir. Bu əsəri yıxan, ona qarşı şiddət göstərən məlundur (lənətlənmişdir)."** - buyurur.

Dr. İbrahim Baz

BİR GÜN DÜNYANIN DA QƏLBİ DAYANACAQ

Gözündəki pərdələri qaldır ki, üzündəki pərdələri də həqiqət qaldırsın. Sevmək kor olmaqdır. Sevdiyinin qüsurunu görməmək, sevdiyindən başqasını görməməkdir. Əsl görmək isə qüsur görməməkdir. Kaş ki, belə görən kor olsan.

Ey könlüm!

Qırx illik bir gündür geridə qalan dünənki ömrün. Sabah məchullarla dolu. Gün bu gün, dəm bu dəm. Bir nəfəsdə həm doğulursan, həm də ölürsən. Elə isə nə üçün gözün hələ də dünəndə və sabahda qalıb? Nəfəsini nə üçün tükədirsən? Əgər dünənini düşünmək istəyirsənsə dünəndən əvvəli, ələst bezmini düşün. Sabahı istəyirsənsə sabahdan sonrasını, məhşər meydanını düşün. Bax gör hardan gəlib hara gedirsən. Əsas məsələ isə necə getdiyindir.

Ey könlüm!

Nə üçün bəyənmədiklərin durmadan artaraq göyə doğru yüksələn dağlara çevrilir. Halbuki göydən gələn nə varsa gözəldir. Yoxsa gözlərində görmə əngəli var? Güzgünün qarşısına keçib gözlərinə bir bax! Elə hey həqiqət axtarırsan. Yoxsa həqiqətin gerçək üzünü görmək üçün gözünün gerçək üzünü görəcək bir göz lazımdır sənə? Gözündəki pərdələri qaldır ki, üzündəki pərdələri də həqiqət qaldırsın. Sevmək kor olmaqdır. Sevdiyinin qüsurunu görməmək, sevdiyindən başqasını görməməkdir. Əsl görmək isə qüsur görməməkdir. Kaş ki, belə görən kor olsan.

Ey könlüm!

Dildarı arzulayırsan, amma qəlbin pak deyil ki, dildar mehmanın olsun. Qəlbin pak

olmadığı üçün dodağın söyləyər sözü. Sözün doğrusu isə dodaqdan deyil, qəlbdən gələr. Qəlbin danışmağa başladığı zaman dilin də doğrunu söylər. Elə isə başındakı dildən əvvəl sinəndəki dili təzkiyə etmən gərək. Əgər könlündə səni incidən, qanadan bir tikan varsa, onu sən əkmisən. Əkməyə gücün çatmışsa, sökməyə də çatar. Qaynaq necədirsə, ondan axan da elədir.

Ey könlüm!

Gözün və əlin elə hey toplayır. Niyə paylamırsan, paylaya bilmirsən axı? Həyat toplamaqdan, ölüm paylamaqdan ibarətdir. Əgər topladıqların dünyaya aiddirsə, ömrün boyu topladıqlarını ölüm bir anda paylayıb dağıdar. Bütün əmanətlər sahiblərinə verilər. Nə üçün ölümün dağıda bilməyəcəyini toplamırsan? Gündüz dünyanındırsa, gecələri nə üçün yatırsan? Necə yatırsan? Sevdiyi olanın gözünə yuxu gedərmi heç?

Ey könlüm!

İbadətlərinin adətə döndüyündən şikayətçisən. Həzz duymamağının, ləzzət almamağının, istəklə etməməyinin, vaxtını gözləməməyinin, yəni adət halına gətirməyinin səbəbi eşqdən məhrum olmandır. Biz eşqə xəyanət etdik. Eşq də bizi tərk etdi. İbadətlər adət oldu. Bunun əlacı eşq atəşi ilə yanmaqdır. Bəs yana bilmiriksə? Şəms kimi yanan bir ürəkdən qığılcım almaqdır. Mövlana həzrətlərinin dediyi kimi, şam başqa şamı yandırmaqla işığından heç nə əskilməz. Əksinə, işığı artar. Eşq işıqdır, aydınlıqdır. İşıq olub işıq saçan yolunu görər. Eşq varsa sən yox olarsan. Sən var olduqda eşq yox olar. Unutma ki, işığın kölgəsi yoxdur. Kölgə olmaqdan qurtulmaq istəyirsənsə, işıq olan eşqin qoluna girməlisən.

Ey könlüm!

İstərsən yaşamaq üçün öl, istərsən ölmək üçün yaşa. Dünyanın hər qarışı doğum evi və məzarlıqdır. Çəkdiyin doğum sancılarında həkim ancaq ölümdür. Unutma ki, "ol" əmrinə layiq olmaq üçün "öl"məyi bilmək lazımdır. Olmaq üçün ölmək. Bu ölüm ölməzdən əvvəlki ölümdür. Elə isə "olmuş" halda "ölmüş" olmalısan. Olmadan ölmək, ölmədən əvvəl ölməmək deməkdir. Zira olanlar ölmürlər. Yunus ölənin ancaq heyvan olduğunu deyir.

Ey könlüm!

Niyyətini xalis tut, daima ixlaslı ol. Ehsan məqamında insan olmağa çalış. Niyyət xeyir olarsa aqibət də xeyir olar. Yusuf (ə.s) Fironun evində böyüyür. Aqibət ölümdür. Ölümlü dünyada ölümsüz həyata hazırlaş. Ey könül, özünə tövsiyə vermək çox çətindir, elə deyilmi? Amma özünü görmədən, eşitmədən, bilmədən yaşanan həyat həqiqət deyil, həqiqətdən qaçışdır. Sənə son sözüm adı Əhməd olan iki şairin bir-birini tanıdan iki beytidir. Səni, dünyanı və ən aydın həqiqət olan ölümü xülasə edən iki beyt. Sənin kimi dünyanın da qəlbi bir gün dayanacaq. Bu dünyadan insana əsa olmaz. Bu gecə bunları düşünərək yat.

Qismətindir gəzdirən yer-yer səni
Ərşə çıxsan aqibət yer, yer[1] səni.
…
Onun üçün onun adı yer oldu
Öncə bəslər, sonra kəndi yer səni.

1. Burada yeyər mənasında

24 Fevral 2009-cu il tarixində Bakı Şəhər İdman və Gənclər Baş İdarəsi və Gəncliyə Yardım Fondunun birgə tərtib etdikləri "Xocalı faciəsi xalqımızın qan yaddaşıdır" adlı inşa müsabiqəsində birinci yerə layiq görülən 217 saylı məktəbin 10-cu sinif şagirdi Nübar Əlizadənin inşası.

XOCALI FACİƏSİ

XALQIMIZIN QAN YADDAŞIDIR

Dəhşətli bir "yuxu" görmüşdüm. Bir qadın saçlarını yolaraq üzünə töküb, baxışlarında anlaşılmaz ağrıdan əzab çəkən bir donuqluqla qollarını yuxarı qaldırıb hey oyanır. Oynayana əl çalarlar. Ətrafdakılar isə əllərini əllərinə yox, sinələrinə çırpırlar. Bu nədir?

Hər tərəf ağ kəfən kimi qarla örtülüb qar üstündə soyulmuş insan cəsədləri birinin ayağı yalın, birinin başı "yalın", birinin qolu yoxdur, birinin qıçı... Bu nədir? Körpə qarın üstündə qalıb. Donmuş körpələri sinəsinə basıb maşına doğru qaçan Çingiz hönkürür. Alahı çağırır. Kişi də belə ağlayarmı? Bu nədir? Artıq neçə illərdir ki, bu dəhşətli "yuxu" mənə dinclik vermir. Haray çəkirəm, səsimə səs verən yox, qışqırıram, köməyimə çatan yox. Görəsən, bu yuxunun sonu olacaqmı? Qəlbimi sızladan, tüklərimi ürpərdən bu dəhşətli hadisələrin ağrısını unutmaq mümkündürmü? Öz-özümə yağdırdığım bu suallara özüm də qətiyyətlə cavab verirəm. Xeyr, unutmayacağam, nə qədər ki, həyatım var. Nə qədər ki, bu işıqlı dünyada yaşayıram, millətimin məhvinə doğru uzanan bu qara qolları unutmayacağam.

Uzaq-uzaq illərin arxasından boylanan ağsaçlı, sinəsi qopuzlu Qorqud babam demişdi axı: "Qarı düşmən dost olmaz". Mərə kafir öz xislətini dəyişmədi ki, dəyişmədi. Mayası pisliklə, çirkinliklə yoğrulmuş bu azğınlar Qazan xanın qarıcıq anasını əsir götürərək Yayxan keşiş oğluna verib, bizdən qisas almaq istəyən kafirlərdir. Boyu uzun Burla xatunumuzu özlərinə şərab paylatmaq istəyən əclaflardır. İndi də qız gəlinlərimizi əsir götürüb, öz çirkin niyyətlərini həyata keçirmək istəyirlər.

Anasının namusunun tapdalanmasındansa, ağ ətindən qara qovurma bişirərək düşmənə əyilməməyi tələb edən Uruz bəy şaxtalı qış gecəsində üç gün meşədə qalan, özünü və yanındaki qız-gəlini murdar erməninin əlinə verməmək üçün balasını öz əlləri ilə boğan ana, erməninin əlinə keçməsin deyə yeganə qızını güllələyən çarəsiz ata nə qədər də bir-birlərinə oxşayırlar.

İçində hönkürə-hönkürə, sinəsinə dağ basıla-basıla bala qatilinə çevrilən ananın əzabını, gözünün ağı-qarası bircə qızını vurub dərd içində qıvrılan atanın zülmünü təsəvvürə gətirə bilərsinizmi?

Ürəyimdə kök salmış bu ağrıları, dərdləri, yaraları sağalda biləcək bir qüvvə yoxdur. Külli bəşər yığıla, ağrılarımı ovuda bilməz, dərdimə təsəlli verə bilməz, yaralarıma məlhəm qoya bilməz. Bu dərd mənim, sənin bizim – bütün azərbaycanlıların dərdidir. Xocalı dərdi! Bu dərd şəhidlər verən şahid Xocalıların dərdidir. Bu dərd Əlifin, Tofiqin və şəhid olan onlarla Xocalı igidlərinin, körpələrinin dəhşətli qətlinə dözə bilməyən Çingiz Mustafayevin hönkürtüsünün dərdidir.

Bülbül güllü bağça, ətirli meşə istəyir. Budaqdan-budağa qonub, sevgi nəğmələrini oxumaq üçün.

Qartal zirvə istəyir. Dağ zirvəsi. Qıy vuraraq əngin fəzalara baş vurmaq, göylərin dərinliklərini məğrur-məğrur seyr eləmək üçün.

Qağayı dəniz istəyir. Ağ köpüklü dalğalar üzərində süzmək, qanad çalmaq üçün xocalılar yurdunu istəyir, torpağını istəyir. Tüstüsü söndürülmüş ocağını tapmaq üçün, şəhid olan balasının yatdığı torpağı qucmaq üçün, güllələnmiş qalasındakı qəlpələri çıxarmaq üçün. O müdhiş gecədə qar üstünə çilənən qanların hopduğu şəhid torpağı qarşısında baş əymək üçün.

Yetim qalmış şəhərinin qəm dolu qəhərini boşaltmaq üçün, yaralarına məlhəm ola biləcək vətəninə məhrəm olmaq üçün, Nəhayət, ana torpağına baş qoyub ölmək üçün.

Qəlbimin dərinliklərində hayqıran bir səslə qışqırmaq, dünyaya səs salmaq istəyirəm. Siz ey insanları diri-diri yandıranlar, başkəsənlər, göz tökənlər, dəri soyan qəssablar, quduz canavarlar, insanlıq adına ləkə gətirənlər! Tarix sizi bağışlamayacaq! Tarix sizi tanımayacaq!

Qarabağ döyüşlərində mərdliklə həlak olan Salatın Əsgərova öz adını Xocalıda doğulmuş bir qızcığaza qoydu. Salatınların sayı artdı. Ana namusunu qorumaq üçün körpə Salatınını boğdu. Lakin Salatın ölmədi. Çünki Salatın Əsgərovanın müqəddəs şəhid ruhu onu qorudu.

Mənə elə gəlir ki, Xocalının sinəsinə sağalmaz dağ basanlar, yuxulu körpələrin nəfəsini kəsənlər, təmizlik mücəssəməsi olan qızlarımızı zindanlara salanlar, günahsız insanların qanına bais olanlar – qarı düşmənlər öz cəzasını alacaq! Qisas yerdə qalmayacaq!

Bir nəğmə eşitmişəm
"Hardan başlanır Vətən?"
Dayan, qardaş, qoy deyim:
Harda şəhid torpaq var,
Ordan başlanır Vətən.
Xocalıdan başlanır
Xocalıdan bu Vətən.

Qəlbimin dərinliklərində hayqıran bir səslə qışqırmaq, dünyaya səs salmaq istəyirəm. Siz ey insanları diri-diri yandıranlar, başkəsənlər, göz tökənlər, dəri soyan qəssablar, quduz canavarlar, insanlıq adına ləkə gətirənlər! Tarix sizi bağışlamayacaq! Tarix sizi tanımayacaq!

namazının pozulduğunu bildirmək üçün:

- Niyə onu qınayırsan, özünə bax, özünü qına! -dedi.

Dördüncüsü isə:

- Allaha şükür ki, mən sizin üçünüz kimi namazımı pozmadım. -dedi.

Beləliklə dördünün də namazı pozuldu.

Başqalarının eyibini deyən daha çox zərər edər. Kim qardaşını etdiyi bir günaha görə ayıblayarsa, o günahı işləmədən ölməz. Bir saatlıq elm altmış illik ibadətdən daha faydalıdır. Bəziləri biz elm adamıyıq, ibadət etməsək də olar fikrinə qapılmasın. Bu söz elm adamının daha şüurlu ibadət edəcəyinə işarədir.

Qocanın qəzəbi

Yaşlı bir adam həkimə şikayət edir.

- Ey Həkim! Zehnim yorğun, ağlım da yerində deyil.

Həkim:

-O ağıl zəifliyi qocalıqdandır. -dedi.

- Gözüm də qaralır.

- O da yaşlılıqdandır.

- Kürəyim möhkəm ağrıyır.

- Ey Qoca! O da qocalıqdandır.

- Yediyimi həzm edə bilmirəm.

- Mədə zəifliyi də yaşlılıqdandır.

- Nəfəs darlığı çəkirəm

- Bəli, o da qocalıqdandır. İnsan qocaldıqda iki yüz cür xəstəlik peyda olur.

Bundan sonra qoca hirslənərək:

- Ey axmaq, sözün təkcə budurmu? Sən həkimlikdən yalnız bunu öyrəndinmi? Allah hər dərdə dərman verməyibmi? Sənin elmin də, ağlın da azdır.

Həkim:

-Ey yaşı yetmiş, işi bitmiş adam. Səndəki bu qəzəb, bu hiddət də yaşlılıqdandır. -dedi.

"Ey Allahın qulları, müalicə olunun! Allah təala qocalıqdan başqa bütün xəstəliklərə şəfa yaratmışdır" (Əbu Davud, Tibb, 1; Tirmizi, Tibb, 2.) Yaşlı adamlar iki kəlmə sözə dözə bilmirlər. Allah dostu olan sevimli qullar isə bundan müstəsnadırlar. Onlar yaşlandıqca kamilləşirlər. Amma bizim vəzifəmiz "Yaradılanı xoş gör, Yaradandan ötrü" prinsipidir. "Allah təala qocalara ehtiram göstərən gəncə yaşlılığında xidmət edəcək kimsələr lütf edər" (Tirmizi, Birr, 75.) Onların da bizə faydaları var. Hədisdə buyurulur: "Beli bükülmüş qocalar, süd əmən körpələr və otlayan heyvanlar olmasaydı, üzərinizə əzab yağardı" (Heysəmi, X, 227)

Söz söyləmək üçün öncə dinləmək lazımdır. Sözə, qulaq asmaq yolundan gir. Dinləmə ehtiyacı olmadan anlaşılan söz, ancaq tamahsız və ehtiyacsız olan Allahın sözüdür. (1 / 131 / 1627, 1629)

Nəfs çox öyülməsi üzündən fironlaşdı. Alçaqkönüllü, təvazökar bir bəndə ol, təkəbbürdən uzaq dur!

Əlindən gəldikcə bəndə ol, sultan olma! (1 / 149 / 1867-1870)

Fuad QULİYEV

İQTİSAD və İSRAF

Hər iki kəlmə də *"istifadə etmək"* mənalarına gəlir. Amma..

Bəli, işin *"əmması"* var. İqtisad *"bir şeyi məqsədinə uyğun istifadə etmək"*, israf isə "bu məqsədə uyğun olmayaraq sağa-sola sovurmaq yoluyla istifadə etməkdir".

Həqiqətən orta yollu, yəni ifrat və təfridə düşmədən görülən iş heç bir zaman nə insanların qınağına, nə də peşmançılığa səbəb olar. Çünki Allah bunu açıqca **"Nə əlini boynuna qoyaraq bərk ol, nə də əlini tamamilə açaraq israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan"** (İsra, 17/29) ayəsində bildirərək sanki iqtisad nəzəriyyəsinin bünövrəsini qoymuşdur.

Günümüzdə, dünyanın içində çırpındığı iqtisadi böhranın bir çox səbəbləri vardır. Lakin "eqo" və "affluenza" xəstəlikləri heç şübhəsiz ki, bu səbəblərin başında gəlir. *"Şərtlər nə olursa olsun hər şey məndə daha çox olsun və özüm bilərəm"* fəlsəfəsi dünyanı caynağına alan insani və iqtisadi böhranlar ortaya çıxarmışdır.

Günümüzdə, dünyanın içində çırpındığı iqtisadi böhranın bir çox səbəbləri vardır. Lakin "eqo" və "affluenza" xəstəlikləri heç şübhəsiz ki, bu səbəblərin başında gəlir. "Şərtlər nə olursa olsun hər şey məndə daha çox olsun və özüm bilərəm" fəlsəfəsi dünyanı caynağına alan insani və iqtisadi böhranlar ortaya çıxarmışdır.

Bəli, israf elə bir burulğandır ki, bir anda hər şeyi alt-üst edib, hegemon zənginləri də başqalarına möhtac vəziyyətə düşürə bilir. "Qənaət bitməz-tükənməz xəzinədir" hədisi-şərifi bu baxımdan insanın iqtisadi həyatında önəmli bir düstur olmalıdır.

ABŞ-ın ən zəngin şirkət və bank "patronlarının" illik cəmi 1 dollara çalışma müqabilində qurumlarının xilası üçün mədəd ummaları hər şeyi izah etməyə kifayət edər yəqin ki.

Bəli, israf elə bir burulğandır ki, bir anda hər şeyi alt-üst edib, hegemon zənginləri də başqalarına möhtac vəziyyətə düşürə bilir.

"Qənaət bitməz-tükənməz xəzinədir" hədisi-şərifi bu baxımdan insanın iqtisadi həyatında önəmli bir düstur olmalıdır.

"Çox çalış, qazan, istədiyin kimi xərclə" fəlsəfəsi günümüzdə artıq iflas etmişdir. Demək ki, həqiqi bir cəmiyyət təşəkkülü üçün sadəcə var-dövlət sahibi olmaq kifayət etməz. *"İnfaq"* mexanizmini işə salaraq toplumun digər fərdlərinin də əlindən tutmaq bir minnət deyil, zərurətdir.

"İqtisad etmək ruzinin yarısıdır. İqtisadlı olanı Allah zəngin edər, israf edəni Allah kasıblaşdırar" kəlamını unutmamaq və bu kəlamı daima günlük həyatımızın başlanqıc nöqtəsi təyin etmək lazımdır. Çünki Allah təala:

"Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!" (Taha, 124) buyurmuşdur.

Ayeyi-kərimədə keçən "dankə" kəlməsi "dar güzəran", "sıxıntılı gün" mənasına gəlməkdədir. Yəni insan, Allahı və onun əmrlərini, qadağalarını diqqətə almamaqla tamamilə maddi hərislik qurbanı olmağı sanki öz iradəsi ilə istəyərək məhşərə gözü kor getməsinə səbəb olacaq. O zaman insanın beyninə "danq" edəcək, amma artıq iş-işdən keçmiş olacaq. Odur ki, var-dövlət insanın dünya və axirətdə məhv olmasına deyil, tam əksinə həm özünün, həm də yaşadığı toplumun səadətinə xidmət edən bir vasitə kimi istifadə edilməlidir. Bunun da yolu "iqtisad" və "infaq"dan keçir.

İsraf, zəngin olsa belə müsrif insanın məişətinin daralmasına aparır. Məişətin daralması isə belə bir həyat tərzinə vərdiş olmayan insanı psixoloji narahatçılığa, depressiyaya, səbirsizliyə və nəhayət -Allah qorusun- küfrə qədər aparıb çıxarır. Bütün bunların çarəsi heç şübhəsiz yuxarıdaki ayeyi-kəriməni dəfələrcə mütaliə edərək oxumaq və Allahın qoyduğu əxlaqi və iqtisadi prinsipləri tapdamamaqdır.

Xülasə, *"maddi güc mənimdir, istədiyim kimi rəftar edərəm"* zehniyyəti bir dönəmin sonunu gətirdi.

Məmməd MƏMMƏDZADƏ

QƏRİB ELLƏRDƏ SARALIB SOLAN

Açılmadı könlüm, gülmədi üzüm
Sevinmədim, sən gedəli sevdiyim.
Dostum yox, düşmənlər dinləməz sözüm
Dərdə düşdüm, dön vəfalı sevdiyim.

Bəli, qapılar qapandı, bağlandı üzümüzə. Bütün xalq, millət yuxudan qafil oyanmış insan təsiri bağışlayırdı. Yarıyuxulu, yarıayıq millət... Key-key ətrafı seyr edən, hələ də nə baş verdiyini anlamayan zavallı, biçarə xalq... Kimi yuxulu-yuxulu, dərk etmədən "Yaşasın Şura hökuməti", "Yaşasın Lenin" qışqıranların ardınca gedərək kütləyə çevrilir, kimi də yarıayıq bir vəziyyətdə olub-keçənləri seyr edərək qarşıda onları böyük fəlakətlərin gözlədiyini dərk edirdi. Milli hökumət devrilmişdi, bolşeviklər at oynadır, Sarkislər, Mirzoyanlar Bakıda ağalıq edirdilər. Lakin bütün bunlara baxmayaraq azadlıq günəşinin yenidən doğacağına, "Bir dəfə yüksələn bayrağın bir daha yüksələcəyinə" inananlar da vardı. Ümmügülsüm də onların arasında idi:

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri zəfər qovmayacaqmı?
Sordum, ümidini sorma dedilər.

1920-ci ilin payızında maarif və mədəniyyət işçilərinin qurultayında çıxış edən N.Nərimanov respublikada 40 min müəllimə ehtiyac olduğunu və bu məqsədlə də ziyalıların kənd və rayonlara göndərilməsinin zəruriliyindən danışdı. Tanınmış ziyalılar rayonlara göndərildi. Bu gün az qala üstündən yüz il keçən o günlərdə bunun nə məqsəd daşıdığını demək çox çətindir. Bəlkə bu göndərişin arxasında paytaxtı ziyalılardan boşaldıb daşnaq ermənilərdən bolşevik ermənilərə çevrilən düşmənlərimizin hakimiyyətə gəlişini sürətləndirmək məqsədi güdülürdü? Bəlkə də Nərimanov bu yolla Azərbaycan ziyalısını "Qırmızı terrordan", az qala hər məhəllədə qurulan "Çeka"dan (Fövqəladə komissiya) qorumaq istəyirdi?!.

...Seyid Hüseyni də Xızıya müəllim təyin etmişdilər. Və təbii ki, Ümmügülsüm də öz Sübhi Sadiqi ilə bərabər idi. İlk dəfə idi ki, Bakıdan ayrılmışdı Ümmügülsüm. Doğma Xəzərin pıçıltısını eşitmirdi. Yamanca qəribsəmişdi Bakı üçün, doğmaları üçün. O qədər qəribsəmişdi ki, o füsunkar Xızı dağlarının, daşlarının dibindən qaynayıb axan bulaqların gözəlliyini duymaz

olmuşdu. Üzünü dağlara tutur, onlarla dərdləşirdi. Dağların arxasında batan günəşi itirilən müstəqilliyimizə bənzədirdi. Qürub çağı qızaran buludlar, nəzərində azadlıq uğrunda axıdılan qana dönürdü.

Uzaqlarda batan günəşin izi
Qaldı buludlarda pənbə qırmızı
Yenə də qəlbimə zöhrə yıldızı
Hicran qayğıları tökdü a dağlar!

Beləcə Ümmügülsüm öz şeirlərini yazırdı. Seyid Hüseyn isə məktəbdə dərs deyir, müxtəlif hekayələr yazırdı.

1921-ci ildə Xızıda ailənin ilki dünyaya göz açdı. Adını Oqtay qoydular. Azərbaycanın ilk Oqtayı. Yeri gəlmişkən, Rus-bolşevik işğalının ilk illərindən başlayaraq yeni doğulan körpələrə əndərabadi adlar qoymağa başlanmışdı. (Marlen, İosif, Klim, Klara və s.) Məhz bu dövrdə XX əsr Azərbaycan ədəbiyyatının nəhəng simaları türkmənşəli adlar qoyurdular uşaqlarına. S. Hüseyn Oqtaydan sonra doğulan övladlarına Cığatay, Toğrul, Qumral adını verdi. H. Cavid Ərtoğrul, Turan qoydu uşaqlarının adını. C. Cabbarlı Aydın, Gülarə çağırdı çiyərparalarını, Y. Vəzir ilkinə Orxan, Ə. Cavad sonbeşiyinə Yılmaz dedi. Bu da mübarizənin bir yolu idi. Yalanları yayanlara, əcdadını dananlara qarşı inad, direniş idi. Kimliyini unutmamaq üçün sonuncu yol, vasitə...

...Bir müddət Xızıda müəllimlik etdikdən sonra Bakıya qayıdırlar. S. Hüseynin yazdığı müxtəlif hekayələr, ədəbi tənqidi məqalələr dövri mətbuatda nəşr olunur. Ümmügülsüm də yazır özü üçün, çap olunmayacağını bilir. Bütün günü evdə uşaqların tərbiyəsi, biş-düşlə məşğul olur. Tez-tez yaxınlıqda yaşayan Müşgünaz xanım (H.Cavidin yoldaşı) onlara gəlir, dərdləşirlər. Gah ötən günlərə qayıdırlar, gah da uşaqlarına baxıb gələcək üçün planlar qururlar.

H.Cavid, Ə.Cavad, Y.Vəzir, S.Mümtaz, Müşfiq gəlib-gedir bu evə. Ədəbi mübahisələr, müzakirələr saatlarla uzanır... Gözəl şəkillər çəkən, rəssamlıq qabiliyyəti olan Yusif Vəzir Oqtayın çəkdiyi şəkilləri bəyənir və ona rəssam olmağı məsləhət görür.

...Vaxt isə sürətlə gedir. Bir qaçaqaç, qovhaqov var hər yerdə. Bütün sahələrdə planlar artıqlaması ilə yerinə yetirilməlidir. O cümlədən, "xalq düşməni" aşkarlayıb ifşa etmək planı da... Axı 1937-ci ildir. 17 ildir ki, sərt şimal küləyi əsir Mil-Muğan düzlərində, Şirvanda. Xəzərin dalğaları sahil qayalıqlarını döyür, NKVD işçiləri də qapıları. Nə dalğaların ardı-arası kəsilir, nə də döyülən qapıların. Artıq Cavid, Cavad, Müşfiq həbsxana divarları arxasındadırlar. Növbədə adam çoxdur hələ. İlk növbədə olanların arasında Seyid Hüseyn də var.

Xəzərin dalğaları sahil qayalıqlarını döyür, NKVD işçiləri də qapıları. Nə dalğaların ardı-arası kəsilir, nə də döyülən qapıların. Artıq Cavid, Cavad, Müşfiq həbsxana divarları arxasındadırlar. Növbədə adam çoxdur hələ. İlk növbədə olanların arasında Seyid Hüseyn də var.

Yazıçının oğlu, xalq rəssamı Oqtay Sadıqzadə:

1937-ci ilin iyun ayının 16-da Novxanıda idim. Günorta dənizə çimməyə getmişdik. Məndən iki yaş böyük olan xalam oğlu Rəsul da (M.Ə. Rəsulzadənin oğlu) bizimlə idi. Evdən xəbər gəldi ki, kimsə Rəsulu soruşur. Rəsul deyinib evə getdi. Təxminən bir saatdan sonra biz də evə qayıtdıq. Xalam, Rəsulun həbs edildiyini xəbər verdi. (Çox sonralar – 50-ci illərin sonunda, vaxtilə "xalq düşməni" kimi həbs edilmiş Cəfər Rəmzi ilə Azərnəşrdə işləyirdim. Ondan Rəsulla bir kamerada ol-

duğunu, həbsdən 3 gün sonra harasa aparılan Rəsulu bir daha görmədiyini öyrəndim.) Bu xəbəri anama çatdırmaq üçün şəhərə qayıtdım. 13-14 yaşlı xalam qızı ilə (sonra onu da xalamla bərabər Qazaxıstana sürgün edəcəkdilər) payi-piyada əvvəlcə Binəqədiyə, oradan İçərişəhərə gəlib çatdıq. Axşam idi. Atam Şüvəlandakı bağımızda idi. Səhər tezdən Şüvəlana gedib ondan da bir xəbər öyrənməli idim... Sən demə həmin gün atamı da həbs ediblərmiş. Bir daha atamı görmədim...

Şura hökuməti isə öz işində idi. İndi növbədə "xalq düşmənləri"nin ailə üzvləri vardı. Ümmülbanu neçə vaxt idi ki, Ümmügülsümün yanında qalırdı. Həm ona həyan idi, həm də fikirləşirdi ki, işdi-şayəd Ümmügülsümü həbs etsələr uşaqlar kimsəsiz qalmasın. Amma sən saydığını say, gör düşmən nə sayır. Əvvəlcə Ümmügülsümü həbs etdilər. Seyid Hüseyndən isə bir xəbər yox idi. 1937-ci ilin çiskinli bir noyabr axşamı qapı döyüldü. NKVD-nin zabitinin əlində Ümmügülsüm Əbdüləziz qızı Rəsulzadə - Sadıqzadənin həbs edilməsi barəsində order vardı.

Xalq rəssamı Oqtay Sadıqzadə:

Evimiz Şirvanşahlar sarayının lap yaxınlığında və küçənin dar olmasına görə dustaq maşını gəlməmişdi. Gələnlər anamı da qabaqlarına salıb piyada İçərişəhərdən çıxdılar. Mən də onlarla gedirdim. Heç birimiz danışmırdıq. İndiki İçərişəhər metrostansiyasının arxasındakı qala qapısından çıxıb maşının gəlməyini gözləyirdik. Maşın gecikirdi. Əynim nazik olduğu üçün anam mənə dedi ki, gedib paltomu geyinim. Qaça-qaça gedib paltomu geyinib gəldim. Küçə bomboş idi...

Ümmügülsümü Bayıl həbsxanasına salırlar. Ara-sıra uşaqları ilə görüş verirlər, məktublaşır uşaqları ilə. Hər görüşdə, hər məktubda Sadiqindən bir xəbər olub-olmadığını soruşur. Cığatayının şeirinə şeirlə cavab verir:

Şeirinin mənimçün qiyməti çoxdur,
Bəzi sözü qəlbə dəyən bir oxdur,
Babandan yaz mənə, xəbərim yoxdur,
Dərdli könül ta narahat olmasın.

Balalarına yazdığı məktublarda bacardıqca özünü sındırmır, ah-nalə qoparmır, çətinliklərin aradan qalxacağını, hər şeyin yaxşı olacağını söyləyir ciyərparalarına. Amma kamerada... Onun ahları özü kimi balalarından ayrı düşmüş onlarla ananın ah-naləsinə qarışır. Kamerada tanış simalar, yaxından tanıdığı qadınlar da az deyil. Şükriyyə xanım, Dilbər...

Tələtümə uğramışız həpimiz,
Qalmamışdır inan daha səbrimiz,
Bir sahil yoxmudur çıxa gəmimiz?
Ağlaşır analar, duyan nərədə?

Həqiqətən də ölkə ucu-bucağı görünməyən qan dənizi idi. Və bu qan dənizində hər gün batan gəmilərdə onlarla günahsız insan boğulurdu.

Kimdənsə bir kömək, bir yardım istəmək mənasız bir şey idi. Dərdli, günahsız insanların iniltilərini, acı fəryadlarını kimsə eşitmir, kimsə duymurdu. Qalın həbs-

xana divarları bu ahları, nalələri udurdu. Dörd divar arasında ağzınacan günahsız analarla doldurulmuş kamerada həm məcazi, həm də həqiqi mənada özünə yer tapa bilmirdi Ümmügülsüm. Ürəyini boşaltmağa, dərdini söyləməyə bir sirdaş, bir həmdəm arayır, axtarır. Ümidi hər yerdən kəsilir. Özünün də, gözü yaşlı, sinəsi dağlı kamera yoldaşlarının da müsibətini uşaqlıq sirdaşı Xəzərə danışır, ondan kömək istəyir:

Darmadağın eylə dalğalarınla
Bizi dar divara alan qalanı.
Heçliklərə sovur küləklərinlə
Çıxılmaz tilsimə salan qalanı.
Nəymiş təqsirimiz, neyləmişik biz?
Bunu sən sual et, mənim dilim yox.

...Məhkəmənin qərarı ilə Ümmügülsümü 8 il azadlıqdan məhrum edərək Mordvaya göndərdilər.

Yük qatarları gecə-gündüz Sibirə, Uzaq Şərqə gedirdi.

Qatarlar ah-nalə ilə, inilti ilə yüklənmişdi.

Yükü ağırdan ağır idi bu qatarların. Yorulur, tövşüyürdü qatarlar. Bəzən günlərlə hansı stansiyadasa dincini alır, sonra yoluna davam edirdi. 3-4 günlük yolu bir aya, ay yarıma güclə gedirdi qatarlar.

Yük qatarları gecə-gündüz insan daşıyırdı. Günahsız müqəssirləri. Doğmalarından, əzizlərindən, elindən-obasından ayrılanların gözü arxada qalmışdı.

Mən saralıb solan qərib ellərdə
Sözüm dastan olar bütün dillərdə.
Gözüm qaldı çiçəklərdə, güllərdə
Gül dərmədim, düşdüm çəmən ayrısı.
Sürgünəm, düşmüşəm Vətən ayrısı.

...Həbsxana həyatı Ümmügülsümün səhhətini pozur. 1944-cü ildə xəstəliyə tutulduğu üçün onu vaxtından əvvəl azad etsələr də Bakıda yaşamağa icazə vermirlər. Oqtay, Cığatayı da görmür Bakıda. Onları da Sibirə sürgün etmişdilər. Qumral və Toğrula Səyyarə analıq edirdi. S. Hüseynin bacısı qızı Səyyarə. Uşaqlardan bir neçə yaş böyük olan Səyyarə. Ümmügülsüm 15 yaşlı Qumralla Şamaxıda yaşamağa məcbur olur.

Fiziki və mənəvi işgəncələr üzmüşdü Ümmügülsümü. Vicdansızlığın baş alıb getdiyi bir məmləkətdə həyat göz yaşlarının dərinliyində məhv olurdu. Vəfalı ömür-gün yoldaşından bir xəbər arayırdı. Ayrılığa dözə bilmirdi. Çağırırdı vəfalısını.

Dərdə düşdüm, ayrılığa dözmərəm,
Bu çəməndə sənsiz təkcə gəzmərəm.
Gəlmədikcə göz yolundan üzmərəm
İnsaf elə, gəl vəfalı sevdiyim.

Nə biləydi ki, Seyid Hüseyni hələ 1937-ci ildə Qum adasında güllələyib dalğaların qoynuna atıblar. Haradan biləydi ki, bu dünyada görüşmək bir daha onlara qismət olmayacaq.

1944-cü ildə...

Dağılsa kainat, məhv olsa dünya,

Mən uca göylərdə araram səni –pıçıldayaraq Sübhi Sadiqinin, Seyid Hüseynin ardınca o dünyaya köç etdi.

Yükü ağırdan ağır idi bu qatarların. Yorulur, tövşüyürdü qatarlar. Bəzən günlərlə hansı stansiyadasa dincini alır, sonra yoluna davam edirdi. 3-4 günlük yolu bir aya, ay yarıma güclə gedirdi qatarlar. Yük qatarları gecə-gündüz insan daşıyırdı. Günahsız müqəssirləri. Doğmalarından, əzizlərindən, elindən-obasından ayrılanların gözü arxada qalmışdı...

Adem Şahin
ameha0@hotmail.com

XOŞ GƏLDİN, BAHAR!



Yaşayanlar öləcək, güclülər zəifləyəcək, yüksələnlər alçalacaq, yarpaqlar tökülə-cək, yaşıllıqlar saralacaq. Hər kamalı za-val təqib edəcəkdir. Çünki Allahdan baş-qa hər şey fanidir. Yalnız Allahın zatı qa-lacaqdır. (ər-Rəhman, 36)

Ən yaxşı təbiblərə getsən, ən mükəm-məl şəkildə qidalansan və ən güclü qa-lalarda gizlənsən də **"Hər nəfs ölümü dadacaqdır"** İp ilə yuxarı çəkilməyə ça-lışsam da faydası yoxdur. Diqqət edilsə görülər ki, dünya həyatında əsl istiqa-mət torpağa doğrudur.

"O gün bütün sirlər aşkar olacaq" (ət-Tariq, 9) ayəsində ifadə edilən proses ölüm ilə başlayar, məhşərdəki məhkə-mə qurtarana qədər davam edər. Qış ilə yaşadığım ölüm yaşıl ikən gizlətdiyim adımı və hər şeyi ortaya çıxardı.

Skeletdən yeganə fərqim ayaq üstə ol-mağımdır. Baharda mənə həyat verərək yaşıl libasa bürüyüb geydirəcək və çi-çəkləndirəcək olan Uca Allah mələklə-rin səcdə etdirdiyi insanı niyə torpaqda əbədi saxlasın? Təbiətdə qış mövsü-mündə yox olan hansı varlıq baharda üzünü göstərməyib?





“Həyat ancaq bu dünyadan ibarətdir, biz dirilməyəcəyik” (əl-Ənam, 29), “Bizi yenidən kim dirildəcək?” (əl-İsra, 51) deyən insan bahardan utanmırmı? Qışın soyuğu, qurumuş ağaclar və çılpaq budaqlar istiyə, yaşıla, çiçəyə, yəni bahara hamilədir. Qəbirlərin soyuqluğu, içəridəki sümüklər və çürümüş bədənlər qış mövsümündədir. Onlara da bahar gələcəkdir. Sən baharı olmayan neçə qış gördün ki, qəbirdə yaşanan qışın baharı gəlməyəcək deyirsən?

“Sümüklərimiz çürüyüb torpağa qovuşduqdan sonra yenidən dirildiləcəyimizə inanmıram” deyən insanlar olmuşdur. Amma dünya tarixi boyunca ağac, çiçək bir tərəfə, ayaqlar altında tapdağa çevrilən ot da “biz quruyub çürüdükdən və torpağa qarışdıqdan sonra yenidən dirilməyəcəyik” deməmişdir. Hamısı bahara inanmışdır, baharı gözləmişdir və bəzən bahar geciksə də mütləq gəlmişdir.

Torpağın sinəsi o qədər genişdir ki, Hz. Adəmdən qiyamətədək bütün insanları ozündə saxlayır. Əsas olan ölmək deyil, torpağa Allahın istədiyi kimi düşməkdir.

Sordum sarı çiçəyə
Övlad, qardaş varmıdır?
Çiçək ey der derviş baba
Övlad, qardaş yarpaqdır.

Ata-ananın oğul-uşaq sahibi olması üçün quruyub-tökülməsi, “xoş gəldin, ey qış” deməsi şərtdir.

Bizdə bahar və qış, insanlarda isə həyat və ölüm var. Bahar-qış, həyat-ölüm bir-birini təqib edər. Ey ölümdən sonra həyat (axirət) yoxdur deyən insan, çöldəki otlardan, çiçəklərdən yaşıl libasını geyməyə başlayan ağaclardan utan! Allahdan utanmırsansa, əlinlə pambığın altına basdırdığın buğdadan, “ölü idim dirildim, quru idim yaş oldum, əlhəmdülillah” deyən səmənidən utan!..

Ceyhun Həşimov
ceyhun_hashimov@hotmail.com

Texno Aləm

Atlantik okeanının dibində batmış dünya tapıldı

Platonun rəvayət etdiyi Atlantida ötən günlərdə kəşf edilib.

Google Earth proqramı sayəsində Atlantik okeanında tapılan "sirli" şəkillər bir zamanlar yer üzündən silinmiş Atlantida qitəsinin xarabalıqları ola bilər. Lent.az-ın məlumatına görə, bu sensasion xəbəri İngiltərədə çıxan "The Sun" qəzeti yayıb.

Ötən günlərdə baş vermiş bu qeyri-adi kəşf okeanoloqları və geofizikləri hərəkətə gətirib. Xarabalıqlar olduğu güman edilən su-altı şəkillər, xəritədə Afrika qitəsinin qərb sahillərindən 997 kilometr məsafədə yer alır.

Fotolarda görülən "qüsursuz" dördbucaqlı şəkillərin ölçücə Uels böyüklükdə olduğu və 4 kilometr dərinlikdə yerləşdiyi bildirilir. Birbiri ilə kəsişən görünən xətlər xəritəni xatırladır. Təsvirlərin təbii yolla əmələ gələ bilməyəcək qədər dəqiq olması diqqət çəkir.

Atlantidadan bəhs edən filosof Platon qitənin e.ə. 9700-cü ildə, yəni təxminən 12 min il öncə sulara qərq olduğunu yazırdı. Nyu-York Universitetinin arxeologiya üzrə kuratoru doktor Çarlz Orser, kəşfi "heyrətamiz" adlandırıb.

Başqa planetlərdə həyat var

Dünyanın qabaqcıl astronom aliminə görə kosmosda dünya kimi trilyonlarla planet var və bu da dünya xaricində həyatın var olmasını qaçınılmaz edir.

Yer üzündə həyatın yalnız bir dəfə meydana gələn qəribə bir qəza nəticəsində ortaya çıxdığı hesab olunurdu.

Bu fikir dəyişikliyinə səbəb olan şey isə, kosmosda planet sayının çoxluğudur.

Vaşinqton D.C.dakı Carnegie İnstitutunda işləyən astronom Boss, kainatda yer üzü xüsusiyyətində trilyonlarla ulduz tapdığını dedi.

Bu səbəblə elm adamı kainatın var olduğu, milyardlarla il boyunca başqa bir planetdə də həyatın inkişaf etmiş olmasının "qaçınılmaz" olduğunu ifadə etdi.

Dr. Boss: "Əgər yaşanılabilən bir planet varsa və bu planet bir neçə milyard il boyunca təkamül keçirmişsə, buralarda həyatın olmasına şəkk etmək mümkün deyil" dedi.

London elm muzeyində Robot personal!

Londondakı elm muzeyində işləyən Berti (robot), ziyarətçilərlə qısa söhbətlər edir, onların əlini sıxır.

Londondakı Elm Muzeyi öz ziyarətçilərini əyləndirən, onlarla ünsiyyət qura bilən yeni robotla tanış etdi.

Robotu hazırlayan Elumotion şirkətindən Graham Whiteley, insanlarla ünsiyyət qura bilən və təbii şəkildə hərəkət edə bilən insanabənzər robot anlayışı üzərində çalışdıqlarını ifadə edərək, "Berti kimi robotlardan yol qəzalarında orqanlarını itirənlər üçün protez və ya mina təmizləmə kimi çox təhlükəli vəzifələri yerinə yetirməkdə faydalanıla bilər" dedi. Muzeydəki ziyarətçilərin əlini dəmir əliylə sıxa bilən və onlarla

qısa söhbətlər edə bilən Bertini inkişaf etdirən mühəndislər daha da inkişaf etmiş robotlar üzərində çalışdıqlarını ifadə edirlər. 225 min avro dəyərindəki robotun əlini sıxarkən yenə də xüsusi bir əlcək geyilməsi tövsiyə edilir.

QIVRILA BİLƏN LCD

Yaponiyanın paytaxtı Tokioda istifadəçilərə təqdim olunan elastik LCD ekran diqqətləri cəlb etdi.

Chiba Universitetində hazırlanan və növünün ilk nümunəsi olan ekranın, maye kristal mikro kapsulalar istifadə edilərək dizayn edildiyi açıqlandı. Elastik ekranı təkmilləşdirən professor Kenichi Koseki təşkil etdiyi mətbuat konfransında LCD-nin bütün hünərlərini izləyicilərə göstərdi. Nano texnologiyasının istifadə olunduğu ekran film və ya görünüşlər varkən də elastik olaraq hərəkət etdirilə bilir.

DƏVƏTNAMƏ

Azərbaycanlı və Türkiyəli xanımların birgə əməyinin bəhrəsi olan ənənəvi 6-cı xeyriyyə sərgisində iştirak etməyinizi arzu edir və minnətdarlığımızı bildiririk.

Gəncliyə Yardım Fondunda keçiriləcək olan xeyriyyə sərgisindən əldə olunacaq gəlirlər, Azərbaycan Respublikasının Prezidenti Cənab **İlham Əliyevin** 2009-cu ilin Uşaq ili elan edilməsi haqqında, 2008-ci il 22 dekabr tarixli 103 nömrəli sərəncamının icrasına dəstək olmaq məqsədi ilə "Uşaqlar arasında dişlərə qulluq mədəniyyətinin formalaşması" mövzusunda Bakı şəhər orta ümumtəhsil müəssisələrində təşkil olunacaq layihəyə xərclənəcəkdir.

Tarix: 06\03\2009
Saat: 11.00
Yer: GYF Konfrans zalı
Ünvan: Cəfərov Qardaşları 16
Tel: 492 32 23

Gəncliyə Yardım
Fondu rəhbərliyi

Qeyd: Sərgi 4 gün davam edəcəkdir.

"Səssizliyin harayı" kitabının təqdimat mərasimi keçirilib

Fevralın 18-də Azərbaycan Respublikası Gəncliyə Yardım Fondunun konfrans zalında Azərbaycan yazıçılar birliyinin üzvü, Bakı Atatürk Liseyinin 9-cu sinif şagirdi Mirbəhram Əzimbəylinin "Səssizliyin harayı" kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə Türkiyə Cümhuriyyəti səfirinin təhsil müşaviri Halis Koyuncu, din xidmətləri müşaviri Müzəffər Şahin, Gəncliyə Yardım Fondunun İdarə heyətinin üzvləri, tanınmış yazıçı-publisist Sabir Azəri, Atatürk liseyinin müdiri Şinasi Güner iştirak etmişdir.

Tədbirdə çıxış edən təhsil müşaviri bu yaşda bir gəncin ikinci kitabının çıxması münasibəti ilə Mirbəhramı təbrik etdi. Gənc yazarın kitabı haqqında öz ürək sözlərini qeyd edərək bildirdi ki, bu yaşda belə gözəl bir fikirləri qələmə almaq təkcə Mirbəhramın uğuru deyil, bu, eyni zamanda bütün Azərbaycanın uğurudur.

Din xidmətləri müşaviri Müzəffər Şahin isə ilk növbədə belə bir övlad yetişdirdikləri üçün gənc yazarın valideynlərinə öz təşəkkürünü bildirdi. O, qeyd etdi ki, Mirbəhramın belə gözəl fikirləri qələmə alması həm onun dünya görüşünün inkişafından, həm də seyid soyundan gəlməsindən qaynaqlanır.

Gəncliyə Yardım Fondunun mətbuat şöbəsinin müdiri Salih Zeki Meriç də öz çıxışında Mirbəhramı yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik etdi. Salih bəy bu tədbirin Azərbaycan xalqının böyük ədibi Bəxtiyar Vahabzadənin ölümü ilə bir vaxta təsadüf etməsini xüsusilə vurğulayaraq Mirbəhramın da Bəxtiyar Vahabzadə kimi böyük şair olacağına ümidvar olduğunu bildirdi. Həmçinin Gəncliyə Yardım Fondunun belə istedadlı gəncələrə gələcəkdə də dəstək olacağını qeyd etdi.

"Zəka" İntellektual mərkəzinin rəhbəri, tanınmış yazıçı-publisist Sabir Azəri gənc yazarın yaradıcılıq dünyasından söz açıb, Mirbəhramın gələcəyinə böyük ümidlər bəslədiyini dedi.

Məlumat üçün bildirək ki, fevralın on yeddisində Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç Mirbəhram Əzimbəylini qəbul edib öz təbriklərini və tövsiyələrini gənc yazara çatdırıb. Tədbirin gedişi zamanı isə cənab səfir yazarın şərəfinə gül dəstəsi göndərib.

Xüsusən də kitabın çıxmasında və tədbirin təşkilində göstərdikləri maddi və mənəvi dəstəyə görə Gəncliyə Yardım Fondunun rəhbərliyinə minnətdarlığını bildirdi.